AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

17 NOYABR 2018-ci il ŞƏNBƏ № 257 (6290) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Azərbaycan Prezidenti İlham Əliyevin Sumqayıt şəhərinə səfəri

## Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt şəhərinə səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərdə görülən işlər haqqında dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

**AZƏRTAC**

## Azərbaycan Gənclərinin VIII Forumunun iştirakçılarına

Hörmətli Forum iştirakçıları,

Əziz gənclər!

Sizi - Azərbaycan Gənclərinin VIII Forumunun nümayəndələrini səmimi qəlbdən salamlayır və ali toplantınızın işinə uğurlar arzulayıram.

Gənclərin növbəti Forumunun Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etdiyimiz ildə, "Cümhuriyyətin varisləri - Azərbaycanın gələcəyi" şüarı altında keçirilməsi rəmzi məna daşıyır. İstər Xalq Cümhuriyyətinin mövcud olduğu, istərsə ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə gənclərin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verilmişdir. Hazırda da gənclər siyasəti sosial siyasət kursumuzun və insan kapitalının inkişafı prosesinin əsas istiqamətlərindən biridir.

1996-cı ildə Azərbaycan gənclərinə geniş və açıq müzakirə tribunası vermiş ilk Forumun keçirilməsi təşəbbüsü gəncləri daha fəal, daha məsuliyyətli və daha yetkin görmək istəyən ulu öndər Heydər Əliyevə məxsusdur. Ənənəvi olaraq keçirilən forumlar ulu öndərin tarixi qərarına əsaslanaraq gənclərin fikir mübadiləsi aparmaları, öz təklif və ideyalarını səsləndirmələri üçün platformanı təmin etməklə, onların dövlət və cəmiyyətin həyatında fəal iştirakına şərait yaradır.

İqtisadi və hərbi qüdrəti, siyasi nüfuzu regional və qlobal miqyasda davamlı olaraq artan respublikamızda ötən dövr ərzində gənclərin hərtərəfli inkişafını təmin edən, onların intellektual və innovativ yaradıcılıq potensialının reallaşmasına şərait yaradan, ictimai təşəbbüslərini dəstəkləyən çoxsaylı tədbirlər həyata keçirilmişdir. Bu gün Azərbaycan gənci layiqli vətəndaş kimi cəmiyyət həyatının bütün sahələrində fəallıq göstərir, ölkəmizin iqtisadi və hərbi qüdrətinin artması, siyasi nüfuzunun yüksəlməsi, milli-mənəvi və ümumbəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi işinə əhəmiyyətli töhfə verir. Gənclər ölkəmizi beynəlxalq arenada da layiqincə təmsil edir, ictimai diplomatiyanın genişlənməsində, xarici həmyaşıdları ilə əlaqələrin qurulmasında səylərini əsirgəmir, Azərbaycanın milli mənafeyini yüksək tuturlar.

Gənclər Siyasəti üzrə I Qlobal Forumun Azərbaycanda keçirilməsi, "Gənclər sahəsində Bakı Öhdəlikləri"nin qəbul edilməsi ölkəmizin gənclər siyasəti sahəsində uğurunu, yeni yanaşmaların və standartların tətbiqini əks etdirir. Son illərdə ardıcıllıqla qəbul edilmiş və hazırda uğurla həyata keçirilməkdə olan "Azərbaycan gənclərinin İnkişaf Strategiyası (2015-2025-ci illər)", "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı" gənclərin fərdi inkişafı və qərarların qəbulu prosesində iştirakının artırılması istiqamətində yeni imkanlar yaradır.

Əminəm ki, Forum dövlət gənclər siyasətinin daha səmərəli icrası ilə bağlı geniş və hərtərəfli müzakirələr, parlaq və innovativ ideyalar məkanına çevriləcək, gəncləri yeni uğurlara ruhlandıracaqdır.

Bir daha Sizin hamınıza və VIII Forumun işinə uğurlar arzu edirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 noyabr 2018-ci il.**

## Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında inşaat kimyəviləri zavodunun açılışında iştirak edib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkının rezidenti inşaat kimyəviləri zavodunun açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə iqtisadiyyat naziri Şahin Mustafayev Prezident İlham Əliyevə Sumqayıt Kimya Sənaye Parkında görülən işlər, parkın rezidentləri barədə məlumat verdi. Bildirildi ki, 2013-cü ildə dövlətimizin başçısının iştirakı ilə təməli qoyulmuş Sumqayıt Kimya Sənaye Parkında ötən müddətdə intensiv tikinti-quraşdırma işləri aparılıb, köhnə bina və qurğular sökülüb, müvafiq infrastruktur yaradılıb.

**(davamı 2-ci səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin Sumqayıt şəhərinə səfəri

## Sumqayıt Kimya Sənaye Parkında əlvan metallar və ferroərintilər zavodunun açılışı olub






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan "Baku Non Ferrous and Foundry Company" MMC-nin əlvan metallar və ferroərintilər zavodunun açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Baku Steel Company" Məhdud Məsuliyyətli Cəmiyyətinin müşahidə şurasının sədri Rasim Məmmədov Prezident İlham Əliyevə əvvəlcə yaxın gələcəkdə inşası planlaşdırılan layihənin üçüncü fazası, yeni fasonlu tökmə zavodunun tikintisi barədə məlumat verdi.

Bildirildi ki, bu zavodda maşınqayırmada, kənd təsərrüfatında, dağ-mədən sənayesində istifadə olunan məhsullar istehsal ediləcək. Bu məhsullar arasında yayma valları, 3D printer vasitəsilə hazırlanan detallar, dəyirman kürələri, müxtəlif növ maşın avadanlıqları üçün detallar var. Zavodun illik istehsal gücünün 12000 ton olması nəzərdə tutulub.

Dövlətimizin başçısına Daşkəsən rayonundakı dəmir-filiz yataqlarından istifadə edilməklə Gəncədə böyük metallurgiya zavodunun tikintisi ilə bağlı da məlumat verildi. Artıq tikinti ilə bağlı texniki işlər yekunlaşıb. Qeyd edildi ki, Daşkəsəndəki yataqlarda yeni geoloji işlər və ehtiyatların qiymətləndirilməsi aparılıb.

Prezident İlham Əliyev əlvan metallar və ferroərintilər zavodunu işə saldı.

Zavodda İtaliya texnologiyası əsasında ildə 50 min ton ferrosilisium və 72 min ton ferrosilikomanqan istehsal ediləcək. Məhsullar daxili bazarın tələbatını tam ödəməklə yanaşı, xaricə də ixrac olunacaq. Bu zavodda Azərbaycan tarixində ilk dəfə olaraq ferrosilisium, ferrosilikomanqan və gələcəkdə ferroxrom da istehsal ediləcək. Bu ferroərintilərin istehsalı yüksək temperaturda manqan filizindən və kvarsitdən karbon tərkibli maddələrin vasitəsilə müvafiq olaraq manqan və silisium elementinin bərpasına və onların dəmirlə birləşmə yaradaraq kristallaşmasına əsaslanır. Ferroərintilərin istehsalı üçün lazım olan komponentlər elektrik qövslü sobada əridilərək çalovlar vasitəsilə konveyerdə qəliblərə tökülür və müvafiq fraksiyalar şəklində hazır məhsul əldə edilir. İstehsal olunmuş məhsul avtomatik paketləmə maşınında 1 tonluq kisələrə qablaşdırılır.



Zavodda ekoloji tələblərə uyğun, mükəmməl konstruksiyalı qaz-toz təmizləyici qurğu işə salınıb. Qaz-toz tutucu qurğuda isə istehsal prosesi zamanı ayrılan uçucu maddələr və qazlar xüsusi filtrlər vasitəsilə tutularaq təmizlənir və bərk hissəciklər islatma üsulu ilə xüsusi konveyerlərdən keçirilərək dənəvarı hala salınır. Bundan sonra həmin maddələr kisələrə yığılaraq qablaşdırılır. Bu məhsul həm satıla, həm də təkrar istehsal prosesinə qaytarıla bilər. Bütün bu maddələrdən təmizlənmiş hava kütləsi filtrlərdən keçdikdən sonra ekoloji normativ tələblərə uyğunlaşdırılır, daha sonra atmosferə buraxılır.

Burada istehsal olunan məhsulun keyfiyyəti bir çox beynəlxalq standartlara, o cümlədən QOST və İSO-ya uyğunlaşdırılıb. Zavodda sınaqlar quru və yaş, spektrometr vasitəsilə müxtəlif üsullarla yoxlanılır. Məhsulun keyfiyyəti spektral təhlil və kimyəvi üsulla analiz olunur. İnvestisiya dəyəri 51 milyon dollar olan zavodda 230 nəfər işlə təmin olunacaq. Zavod 2016-cı ilin fevralında rezident kimi qeydiyyata alınıb. Layihənin əsas təyinatı metallurgiya sənayesində son məhsulun istehsalı üçün tələb olunan ferroərintilərin lazımi səviyyədə təmin edilməsi və həmin sənaye sahəsinin idxaldan asılılığının nisbətən aradan qaldırılmasıdır.

Dövlətimizin başçısı müəssisənin istehsal prosesi ilə tanış oldu.

**AZƏRTAC**



## Sumqayıt Kimya Sənaye Parkında tütün məmulatları istehsalı fabriki istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkında "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabrikinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Tabaterra" QSC-nin direktoru Elman Cavanşir dövlətimizin başçısına burada yaradılan şərait barədə məlumat verdi.

Qeyd olundu ki, zavod ötən il parkda rezident kimi qeydiyyata alınıb. Burada 3 formatda olmaqla beynəlxalq standartlara uyğun siqaret istehsal ediləcək. Fabrik məhsullarını "Made in Azerbaijan" brendi altında istehlakçılara təqdim edəcək. Böyük Britaniya, Almaniya və İtaliya texnologiyaları əsasında qurulan fabrikdə il ərzində 11 milyard ədəd 3 növdə filtrli siqaretlər istehsal ediləcək. Bu isə ölkənin tütün məmulatlarına olan tələbatının 80 faizini ödəyəcək. ümumilikdə, fabrikdə 13 brendin 80 çeşiddə məhsulunun istehsalı nəzərdə tutulur. Burada "Tabaterra"nın hər biri 6 çeşiddə "Senate", "Kingston", "Argo" adları altında məhsulu istehsal ediləcək. Bundan başqa, "British American Tobacco", "Japan Tobacco İnternational", "İmperial Tobacco" şirkətlərinin məhsulları da lisenziya əsasında müəssisədə istehsal olunacaq. Bu şirkətlərin siqaretləri indiyədək ölkəmizə idxal edilirdi. Beləliklə, bu layihə Azərbaycanda yerli istehsalın inkişafına xüsusi təkan verməklə yanaşı, xaricdən idxalın, eyni zamanda, tütün məhsullarının alınması üçün sərf olunan valyuta axınının azalmasına imkan yaradacaq.



Fabrik beynəlxalq standartlara uyğun istehsal olunacaq məhsullarını müxtəlif formatlarda və qiymət seqmentlərində istehlakçılara təqdim edəcək. Burada istehsal prosesi beynəlxalq keyfiyyət standartlarına tam uyğun olaraq aparılacaq. Ümumi dəyəri 48 milyon dollar olan layihə çərçivəsində 200 yeni iş yeri yaradılıb.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

Sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkındakı müəssisələrin kollektivlərinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**(davamı 3-cü səhifədə)**




## Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında inşaat kimyəviləri zavodunun açılışında iştirak edib

**(əvvəli 1-ci səhifədə)**

Zavodun baş direktoru Adəm Yayla Prezident İlham Əliyevə müəssisə haqqında məlumat verdi. İnşaat kimyəviləri zavodu 1910-cu ildə yaradılan və dünyanın 100-ə yaxın ölkəsində müəssisələri fəaliyyət göstərən İsveçrənin "SİKA AG" şirkətlər qrupuna daxildir. Son 18 ildə şirkətə dünya miqyasında beton konstruksiyalarının təmiri ilə bağlı 100-ə qədər layihənin icrası həvalə olunub. Struktur birləşdirmə, birbaşa şüşələmə, akustik və gücləndirici sistemlər, avtomobillərə xidmət, o cümlədən avtomobil şüşələrinin əvəzlənməsi, avtomobil gövdəsinin təmiri, dəniz gəmiləri, sənaye laminasiyası, texnika, bərpa olunan enerji və fasad mühəndisliyi sahələri bu şirkətin fəaliyyət istiqamətinə daxildir. Şirkətin məhsullarının əsas tətbiq sahələri kommersiya məqsədli nəqliyyat vasitələri sənayesi, məişət cihazları və sənaye komponentləri, sənaye məqsədli laminasiya, bərpa olunan enerji sənayesi, mexaniki emal və kompozitlər, həmçinin dəniz sənayesidir.




Prezident İlham Əliyev zavodu işə saldı.

2016-cı ilin martında rezident kimi qeydiyyata alınan zavod İsveçrə və Türkiyə texnologiyaları əsasında yaradılıb. İlkin mərhələdə müəssisənin illik istehsal həcmi 40 min ton tikinti qatqılarıdır. Zavodun məhsullarının Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Gürcüstan və İrana ixracı nəzərdə tutulur. İnşaat kimyəviləri zavodu beynəlxalq miqyaslı İsveçrə şirkətinin yerli təmsilçisi kimi Sumqayıt Kimya Sənaye Parkının 100 faiz xarici kapitallı rezidentidir. İnvestisiya dəyəri 3,5 milyon dollar olan layihə çərçivəsində 60 nəfər daimi işlə təmin olunacaq. Hazırda tikinti məhsullarının istehsalında xammal kimi istifadə edilən "Sikament 300", "Sikament FF5" və "Sigunit L25" kimi maddələrin Azərbaycana illik idxalı təqribən 800-1000 ton təşkil edir. Bu maddələrin ölkəmizdə istehsal edilməsi idxalı əvəz etməyə imkan yaradacaq, məhsullarda xarici komponentlərdən istifadəni azaldacaq.

* * *

Qeyd edək ki, Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılmış Sumqayıt Kimya Sənaye Parkı ölkənin ilk sənaye parkıdır. Parkın idarəedici təşkilatı İqtisadiyyat Nazirliyinin tabeliyində olan "Sumqayıt Kimya Sənaye Parkı" MMC-dir. Sumqayıt Kimya Sənaye Parkının 508 hektarlıq ümumi ərazisinin 450 hektarı sənaye zonasıdır. Artıq burada 74 faiz məskunlaşma qeydə alınıb. İndiyədək 18 sahibkarlıq subyektinə rezident statusu verilib. Sumqayıt Kimya Sənaye Parkının mövcud rezidentlərinin layihələrinin investisiya dəyəri 2,8 milyard dollardır. Bunun da 2,2 milyard dolları artıq layihələrə yatırılıb. Hazırda mövcud layihələr üzrə istehsalatda və tikintidə 7000-dək işçi çalışır.

Sumqayıt Kimya Sənaye Parkında 9 müəssisə fəaliyyət göstərir və bu müəssisələr tərəfindən istehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, "Made in Azerbaijan" brendi ilə xarici bazarlara ixrac edilir. Belə ki, sənaye parkının ilk rezidentlərindən olan "Azertexnolayn" zavodu 2013-cü ildən fəaliyyət göstərir və burada polad və polietilen boru, mexaniki və hidrotexniki avadanlıqlar istehsal edilir. Müəssisədə 750-dən çox işçi çalışır. 2017-ci ildə müəssisə üzrə 72 milyon manat dəyərində satış həyata keçirilib ki, bunun təqribən 17 milyon manatı ixracın payına düşür. 2018-ci ilin 9 ayında isə zavod 12,6 milyon manat dəyərində məhsul ixrac edib.



Müxtəlif təyinatlı sənaye məhsullarını istehsal edən "STP" MMC 2014-cü ildən fəaliyyət göstərir və hazırda burada 2000-dən çox işçi çalışır. 2017-ci ildə "STP" tərəfindən 80 milyon manat, bu ilin 9 ayında isə 64,3 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun 2,9 milyon manatlıq hissəsi ixrac olunub.

Sumqayıt Kimya Sənaye Parkının bir sıra digər rezidentləri də məhsullarını xarici ölkələrə ixrac edirlər. 2017-ci ildə 4 müəssisə - aşağı, orta və yüksək təzyiqə davamlı xortum və fitinq birləşmələrini istehsal edən "MST Engineering Services" MMC, yüksək keyfiyyətli sintetik və yarımsintetik sürtkü yağları istehsal edən "Alco" MMC, pestisidlər və aqro-kimyəvi məhsullar istehsal edən "Aqrokimya Azərbaycan" MMC, məlumatların emalı, qeydə alınması və ötürülməsini həyata keçirən "STDC" MMC fəaliyyətə başlayıb. 2018-ci ilin aprelindən elektron təhsil avadanlıqları istehsal edən "Labdisc Azərbaycan" MMC, iyuldan "SOCAR Polymer" MMC-nin polipropilen qurğusu, noyabr ayından şüşə və saxsı məmulatlar istehsal edən "ARCHİ Glass" MMC fəaliyyətdədir. Bu ilin sonunadək daha iki müəssisənin - "SOCAR Polymer" MMC-nin yüksək sıxlıqlı polietilen istehsalı və karbamid zavodlarının fəaliyyətə başlaması gözlənilir. Bu müəssisələrdə 800-ə yaxın yeni iş yerinin açılması nəzərdə tutulur.

Sumqayıt Kimya Sənaye Parkının rezidentləri 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eyni zamanda, parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən və gömrük rüsumundan azad olunur. Bu günədək sənaye parkının rezidentləri artıq 255 milyon manat məbləğində vergi və gömrük rüsumlarından azad olunublar.

**AZƏRTAC**

# Azərbaycan Prezidenti İlham Əliyevin Sumqayıt şəhərinə səfəri

## Sumqayıt Kimya Sənaye Parkında tütün məmulatları istehsalı fabriki istifadəyə verilib



### Prezident İlham Əliyevin çıxışı

- Bu gün Sumqayıt Kimya Sənaye Parkında üç yeni müəssisə fəaliyyətə başlayır. Mən bu münasibətlə müəssisələrin kollektivlərini salamlayır və təbrik edirəm. Əminəm ki, bu müəssisələr çox səmərəli işləyəcək və ölkə iqtisadiyyatına böyük töhfə verəcəkdir.

Bu müəssisələr ən yüksək standartlara cavab verir və bizim sənaye potensialımızı böyük dərəcədə möhkəmləndirən müəssisələrdir. Ferroərintilər, inşaat kimyəvi qatqılar zavodları, siqaret fabriki bu gün fəaliyyətə başlayır. Birinci mərhələdə bu müəssisələrdə 400-dən çox iş yeri yaradılıb, gələcəkdə isə iş yerlərinin sayı 700-ə çatacaq. Mənə verilən məlumata görə, bugünkü mərhələdə siqaret fabrikinə 35 milyon dollar, ferroərintilər zavoduna 25 milyon dollar və inşaat materialları zavoduna isə 3,5 milyon dollar sərmayə qoyulub. Ancaq indi təqdimatda deyildi ki, siqaret fabrikinə bundan sonra da əlavə vəsait qoyulacaq və investisiya həcmi təxminən 50 milyon dollara çatacaq, ferroərintilər zavoduna isə 100 milyon dollar investisiya qoyulacaqdır. Yəni, bu, onu göstərir ki, vaxtilə Sumqayıt Kimya Sənaye Parkının yaradılması ilə bağlı qərar düzgün və vaxtında qəbul edilmiş qərar idi.

Mən 2011-ci ilin sonunda müvafiq Fərman imzaladım və biz parkın yaradılmasına start verdik. Bu ərazidə vəziyyət çox acınacaqlı idi. Vaxtilə tikilmiş və dağılmış, avadanlığı paslanmış müəssisələrin qalıqlarını təmizləmək, torpaq qatını yaxşılaşdırmaq, rekultivasiya işləri aparmaq böyük səy və vəsait tələb edirdi. Ondan sonra kommunikasiya və infrastruktur layihələri icra edildi, 500 hektardan çox ərazi tamamilə təmizləndi və özəl sektorun sərəncamına verildi. Bu, dövlətin özəl sektora göstərdiyi dəstəyin növbəti təzahürüdür. Bu, onu göstərir ki, dövlət-özəl sektor tərəfdaşlığı Azərbaycanda ən yüksək səviyyədə təşkil edilir.

Hazırda Sumqayıt Kimya Sənaye Parkında 18 rezident var, 9 müəssisə fəaliyyətdədir. Bu il 5 müəssisə fəaliyyətə başlayacaq. Onlardan 3-ü bu gün fəaliyyətə başlayır. Gələn il əlavə 4 müəssisə fəaliyyətə başlayacaq və beləliklə, bu parkda ən müasir standartlara cavab verən 18 müəssisə fəaliyyət göstərəcək.

Sumqayıt Kimya Sənaye Parkı, əslində, şəhər içində bir sənaye şəhəridir. Gələcəkdə parkın hüdudları genişləndiriləcək və təbii ki, yeni rezidentlər qəbul ediləcəkdir. On səkkiz müəssisə tam gücü ilə işləyəndən sonra 6 min iş yeri təmin ediləcəkdir. Əlbəttə ki, Sumqayıt şəhərində işsizliyin bundan sonra da aşağı səviyyədə saxlanması üçün bu parkın çox böyük əhəmiyyəti var. Ümumiyyətlə, bu günə qədər Sumqayıt Kimya Sənaye Parkının yaradılmasına, müəssisələrin fəaliyyətə başlamasına 2,2 milyard dollar sərmayə qoyulub və növbəti dövrdə bu rəqəm təxminən 3 milyard dollara çatacaqdır. Əgər biz bu parkı yaratmasaydıq və sahibkarlara güzəştli şərtlər təqdim etməsəydik, dövlət tərəfindən böyük dəstək göstərməsəydik, bu vəsait də qoyulmayacaqdı və iş yerləri də yaradılmayacaqdı. Ona görə biz Sumqayıt Kimya Sənaye Parkının timsalında uğurlu sənaye siyasətimizi görürük və bu siyasət bundan sonra da davam etdiriləcək.

Təsadüfi deyil ki, bu ilin 10 ayında ölkəmizin qeyri-neft sənayesi 10 faiz artmışdır. Bu, çox gözəl göstəricidir. Kənd təsərrüfatı 5 faiz artmışdır. Sumqayıt Kimya Sənaye Parkında əlbəttə ki, sənaye müəssisələri fəaliyyət göstərir, ancaq onların bəziləri kənd təsərrüfatına sıx bağlı olan müəssisələrdir, o cümlədən siqaret fabriki. Mən əminəm ki, bu fabrikin fəaliyyəti nəticəsində Azərbaycanda tütünçülüyün inkişafı daha yüksək templərlə gedəcək. Biz tütünçülüyü bərpa edirik, əgər keçən il 3 min ton quru tütün yığılmışdısa, bu gün artıq 4500 ton yığılıb və 5 min tonu keçəcək. Əlbəttə ki, gələcəkdə bu fabrikdə bizim yerli tütündən daha da böyük həcmdə istifadə olunacaq. Yəni, bu, kənd təsərrüfatına böyük təkan verir.

Sumqayıt Kimya Sənaye Parkında hazırda əyirici boyaq fabrikinin tikintisi davam edir. Bu da xalçaçılığın inkişafına böyük təkan verəcək. Xalçaçılıq indi inkişaf edir, 30 xalça fabrikinin yaradılması nəzərdə tutulur. Xalçaçılığın əsas xammalı yun və ipəkdir. İndi yun tədarükü mərkəzləri yaradılır, baramaçılığa böyük təkan verilib. Şəki ipək kombinatı böyük həcmlə işləyir, fermerlər baramadan böyük gəlir əldə edirlər. Yəni, sənayenin və kənd təsərrüfatının inkişafı paralel şəkildə getməlidir, bir-birini tamamlamalıdır, bir-birinə dəstək verməlidir və biz bunu görürük. Eyni zamanda, əlbəttə ki, bizim əsas məqsədimiz qeyri-neft sektorunu inkişaf etdirmək, idxaldan asılılığı aradan götürmək və qeyri-neft ixracını artırmaqdır və biz burada bunu görürük. Siqaret fabriki tam gücü ilə işləyəndən sonra burada ildə 11 milyard ədəd siqaret istehsal olunacaqdır. Bu gün verilən məlumata görə, daxili tələbat 14 milyarddır. Əminəm ki, bu fabrik idxalı tam əvəzləyəcək. Çünki hazırda yerli istehsal var və gələcəkdə ixrac imkanları da geniş olacaq. Mən istərdim ki, daxili tələbat sıfır səviyyəsində olsun, insanlar siqaret çəkməsinlər, bu pis vərdişdən uzaq olsunlar. Əminəm ki, görülən tədbirlər, o cümlədən qanunvericilikdə atılan addımlar nəticəsində biz bu məqsədə çatacağıq. İstərdim ki, bu siqaret fabriki 100 faiz ixrac məhsulları istehsal etsin. Ancaq bu, hələ ki, mümkün deyil. Biz vətəndaşları keyfiyyətli yerli siqaretlə təmin etməliyik. Lakin, eyni zamanda, hamı, ilk növbədə, dövlət çalışmalıdır ki, Azərbaycanda siqaret çəkənlərin sayı minimum səviyyəyə ensin. Çünki ixrac bizə əlavə valyuta gətirir, əlavə imkanlar yaradır. O cümlədən ferroərintilər zavodunda istehsal olunacaq məhsulun 90 faizi ixraca gedəcək, 10 faiz isə Azərbaycan müəssisələrində yenidən emal olunaraq hazır məhsula çevriləcəkdir.

Qeyri-neft sektorunun inkişafı, qeyri-neft ixracının artırılması əsas məqsəddir. Bu ilin 10 ayında bizim qeyri-neft ixracımız 12 faiz, ümumi ixracımız isə 37 faiz artıbdır. İxrac artdıqca bizim iqtisadi vəziyyətimiz daha da yaxşılaşır. Bu, makroiqtisadi sabitliyə, manatın məzənnəsinə müsbət təsir göstərir. Təsadüfi deyil ki, Azərbaycanda makroiqtisadi sabitlik çox yaxşı səviyyədədir, inflyasiya on ayda cəmi 2,4 faizdir. Bu müəssisələrin yaradılması yerli və xarici investorlar üçün növbəti bir siqnaldır ki, gəlsinlər Azərbaycana sərmayə qoysunlar. Bu yaxınlarda Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan deyə bilərəm ki, tarixi nailiyyət əldə edib, dünya miqyasında biznes mühitinə görə 25-ci yerdə qərarlaşıb. Keçən il biz 57-ci yerdə idik. Yəni, belə bir böyük irəliləyiş əlbəttə ki, aparılan islahatların məntiqi nəticəsidir. "Doing Business" hər bir yerli və xarici investor üçün əsas amillərdən biridir ki, o ölkəyə pul qoyulsun, yoxsa yox. "Doing Business" hesabatı, belə gözəl müəssisələrin yaradılması, Azərbaycanda ümumi vəziyyət, sabitlik, inkişaf əlbəttə ki, xarici və yerli investorları daha da stimullaşdırır. Təsadüfi deyil ki, son 15 il ərzində ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulubdur.

Mən sizi fabriklərin, zavodların açılışı münasibətilə bir daha təbrik etmək istəyirəm. Şadam ki, biz bu gözəl parkı Sumqayıt şəhərində yaratdıq. Sumqayıt ölkəmizin, Cənubi Qafqazın ikinci sənaye şəhəridir. Sumqayıtın inkişafı üçün çox böyük işlər görülür, çox böyük layihələr icra edilir. Sosial layihələr, infrastruktur layihələri, qazlaşdırma demək olar ki, yüz faiz səviyyəsindədir, içməli su 93 faiz səviyyəsindədir, yollar salınır, məktəblər tikilir, gözəl abadlıq işləri aparılır. Sumqayıt bulvarı yaradılıb, sakinlər üçün çox gözəl istirahət zonasıdır, "ASAN xidmət" mərkəzi, Olimpiya Kompleksi, xəstəxana istifadəyə verilib. Əlbəttə ki, Sumqayıt sənaye şəhəri kimi uğurla inkişaf edəcək. Mən əminəm ki, biz qarşıda duran bütün vəzifələri bundan sonra da uğurla icra edəcəyik.

Bir daha sizi təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

* * *

Beləliklə, bütün bu layihələr bir daha sübut edir ki, Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi kursa uyğun olaraq reallaşdırılan sənayeləşmə siyasəti uğurla davam edir. Qeyri-neft sektorunun mühüm tərkib hissəsi olan sənayenin inkişafı, bu sahədə yeni istiqamətlərin müəyyənləşdirilməsi şübhəsiz ki, ölkə iqtisadiyyatının ümumi inkişafına da mühüm töhfələr verir. Belə layihələrin icrası bir neçə mühüm məqamı özündə ehtiva edir. İlk növbədə, bu cür müəssisələrin yaradılması yeni iş yerlərinin açılmasına, işsizliyin azaldılmasına, əhalinin məşğulluğunun artırılmasına töhfə verir. Eyni zamanda, bu cür layihələrin reallaşdırılmasının idxaldan asılılığı azaltmaqla, ixracyönümlü məhsulların sayının və çeşidinin artırılmasında da böyük rolu var.

**AZƏRTAC**







## Prezident İlham Əliyev Sumqayıt Dəmir Yolu Vağzalı Kompleksinin açılışında iştirak edib













**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıta səfəri çərçivəsində Dəmir Yolu Vağzalı Kompleksinin açılışında da iştirak edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Sumqayıt stansiyasının tikintisi, Bakı dairəvi, Ləki-Qəbələ, Astara-Astara dəmir yolu xətlərinin çəkilişi ilə bağlı indiyədək görülmüş və bundan sonra layihələrdə nəzərdə tutulan işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Prezident İlham Əliyevin 2018-ci il 22 yanvar tarixli Sərəncamına əsasən yenidən inşa olunan üçmərtəbəli Sumqayıt Dəmir Yolu Vağzalı binasının ümumi sahəsi 5,5 min kvadratmetrdir. Binanın birinci mərtəbəsində gözləmə zalı, bilet kassaları, məlumat bürosu, polis məntəqəsi, server otağı, əşyaların saxlanması kamerası yerləşir. Yaxın günlərdə burada ticarət mərkəzinin istifadəyə verilməsi planlaşdırılır. Müasir dizaynla tərtib olunmuş istirahət guşələri sərnişinlərin rahatlığını təmin etmək məqsədi daşıyır. İkinci mərtəbədə ofis və maşinistlər üçün istirahət otaqları, mətbəx yerləşir. Binada müasir təhlükəsizlik kameraları, yanğınsöndürmə və havalandırma sistemi quraşdırılıb. Vağzalın zirzəmi hissəsində avtomobil dayanacağı yaradılıb. Əlavə olaraq stansiyada turniket binası, ikimərtəbəli rele və işarəvermə qurğuları binası, hündür və alçaq platformalar, elektrik yarımstansiyası, su nasosxanası, qazanxana və yol sahəsinin məntəqə binası fəaliyyət göstərəcək.





Bildirildi ki, stansiyada, ümumilikdə, 7 yol yenidən qurulub və çəkilmiş ümumi dəmir yollarının uzunluğu 5 min 20 poqonmetrdir. Kompleksdə 12 yoldəyişən quraşdırılıb, uzunluğu 43 metr olan yeraltı piyada keçidi və platformaya yeraltı çıxış keçidi inşa edilib. Bütün stansiyaboyu rabitə və işarəvermə işləri tamamilə yenilənib, elektrik dirəkləri, rigelləri və kontakt şəbəkəsi yenidən quraşdırılıb. Vağzal kompleksinin ətrafında yaşıllıq və abadlıq işləri görülüb. Ərazi boyunca müasir işıqlandırma sistemi quraşdırılıb.

Vağzalın belə yüksək səviyyədə yenidən qurulması, ümumilikdə, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələrin uğurla davam etməsinin daha bir nümunəsi olmaqla ölkənin polad magistrallarının inkişafına göstərilən dövlət qayğısının davamlı xarakter aldığını nümayiş etdirir.

Sonra Prezident İlham Əliyev Sumqayıt-Bakı marşrutu ilə hərəkət edən sərnişin qatarı ilə Bakıya yola düşdü.

Son illərdə lokomotiv və vaqon parklarının yenilənməsi və digər sahələrin müasir tələblər səviyyəsinə çatdırılması istiqamətində görülən tədbirlər nəticəsində İsveçrənin "Stadler Rail Group" şirkətindən "KİSS" markalı ikimərtəbəli elektrik qatarları alınaraq ölkəmizə gətirilib. Həmin qatarlar 2015-ci il sentyabrın 12-də Bakı-Sumqayıt marşrutu ilə hərəkətə buraxılıb və qatarın yolasalma mərasimində Prezident İlham Əliyev iştirak edib.

"Stadler Rail Group" şirkətindən alınan bu elektrik qatarları sərnişinlərin rahat, sürətli və təhlükəsiz daşınması üçündür. Dörd vaqondan ibarət olan ikisistemli elektrik qatarlarının hər birinin ümumi sərnişin tutumu 700 nəfər, oturacaq yerlərin sayı isə 367-dir. Qatar saatda 160 kilometr sürətlə hərəkət edir.

Sumqayıtdan Bakıya və əks istiqamətə qatarların hərəkəti müxtəlif intervallarla həyata keçirilir. Sərnişinlərin sayından asılı olaraq, hərəkət qrafikinə əlavələr edilə bilər. Bildirildi ki, Bakı-Sumqayıt marşrutu ilə sərnişinlərin yüksək sürətlə və rahatlıqla daşınmasını təmin etmək məqsədilə genişmiqyaslı tikinti-quraşdırma və təmir-bərpa işləri aparılıb. Sahə üzrə yeraltı piyada keçidi, hündür platformalar, müasir keçid postları inşa edilib, dəmir yolları əsaslı təmir olunub.

Prezident İlham Əliyev Bakı Dəmir Yolu Vağzalına gəldi.

Dövlətimizin başçısı "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən 2016-cı ildən bəri alınmış yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif dəmir yolu texnikaları ilə də tanış oldu. Bildirildi ki, dəmir yollarında xidmətin keyfiyyətinin yüksəldilməsi, habelə dəmir yolu xətlərinin inşası, təmiri və istismarına nəzarəti təmin etmək məqsədilə göstərilən dövrdə müasir beynəlxalq standartlara uyğun bir çox yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif dəmir yolu texnikaları alınaraq istismara verilib. "EVOLUTİON" seriyalı teplovoz Qazaxıstan istehsalıdır. Lokomotiv 2015-ci ildə istehsal olunub və saatda 120 kilometr sürətlə hərəkət edir.

Sabit cərəyanla işləyən lokomotiv isə Gürcüstanın "Elektrovozquraşdırma" şirkətində istehsal olunub və sürəti saatda 100 kilometrdir.

Dövlətimizin başçısına "Alstom Transport" ikisistemli sərnişin lokomotivi də təqdim olundu. Fransanın "Alstom Transport" şirkəti tərəfindən istehsal edilən bu lokomotiv sabit, həmçinin dəyişən cərəyanla işləyir və saatda 160 kilometr sürətlə hərəkət edir. Bütövlükdə, Avstriya, Rusiya, Çexiya və digər ölkələrdən alınan yeni lokomotiv və avadanlıqlar təmir-tikinti və istismar proseslərinin tamamilə avtomatlaşdırılmasına və mexanikləşdirilməsinə imkan yaratmaqla əl əməyini tədricən aradan qaldırır. Yeniliklər həm də nəqliyyatın hərəkətini dayandırmadan köhnə relslərin yeniləri ilə əvəz olunması, şpalların dəyişdirilməsi, yol yataqlarının yenidən qurulması, yolların ətrafının təmizlənməsi, elektrik xətlərinin və dirəklərinin əvəzlənməsinə əlverişli şərait yaradır.

Bildirildi ki, alınan yeni sərnişin qatarları, lokomotivlər və müxtəlif texnikalar həm də dəmir yollarında daşımaların təhlükəsizliyini gücləndirəcək, xüsusilə də sərnişinlərə xidmətin keyfiyyətini daha da yüksəldəcək.

Yeni texnikalar dəmir yolu xətlərinin inşasının, təmiri və istismarının müasir standartlara çatdırılmasını təmin edəcək. Bütün bunlar son illərdə ölkəmizdə nəqliyyat infrastrukturunun davamlı inkişafı üzrə dövlət siyasətinin tərkib hissəsidir. Bu gün Azərbaycanda dəmir yolu infrastrukturunun müasirləşdirilməsi, beynəlxalq standartlara uyğun qurulması Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü iqtisadi inkişaf modelinin bəhrəsidir. Bu model bu gün Azərbaycanı Qərblə Şərq, Şimalla Cənub arasında ən mühüm nəqliyyat qovşağına çevirir.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**



# Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşlarına

Hörmətli avtomobil yolu təsərrüfatı işçiləri!

Sizi ölkəmizdə avtomobil yolu təsərrüfatının yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və gələcək fəaliyyətinizdə nailiyyətlər arzulayıram.

1918-ci ilin iyun ayında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarına əsasən, Yollar, Poçt və Teleqraf Nazirliyi yaradılmış, bununla da ölkəmizin yol təsərrüfatının ayrıca sahə kimi bünövrəsi qoyulmuşdur. Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrini layiqincə yaşadan müstəqil Azərbaycan Respublikasının ötən müddət ərzində iqtisadiyyatının sürətli inkişaf modeli ilə formalaşmasına yol təsərrüfatı və nəqliyyat sektoru dəyərli töhfələr vermişdir.

Avtomobil yollarının tikintisi, təmiri və saxlanılması ilə məşğul olmuş və ayrı-ayrı illərdə fərqli adlar altında fəaliyyət göstərmiş idarə və təşkilatların bugünkü varisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyidir. Qurum ümummilli lider Heydər Əliyevin "Yol - iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir" sözlərini haqlı olaraq öz fəaliyyətinin başlıca devizinə çevirmişdir.

Ulu öndər respublikamıza rəhbərlik etdiyi illərdə yol infrastrukturunun kompleks şəkildə inkişaf etdirilməsi, avtomobil yolu təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və onun kadr potensialının gücləndirilməsinə həmişə xüsusi diqqət yetirmişdir. Yol təsərrüfatında əsaslı dönüşün yaradılması və onun idarəetmə mexanizminin bacarıqlı, işgüzar mütəxəssislər hesabına komplektləşdirilməsi məhz Heydər Əliyevin bu istiqamətdə gerçəkləşdirdiyi məqsədyönlü inkişaf strategiyasının bəhrəsidir.

Strategiyanın uğurlu davamı olaraq ölkə həyatının bütün sahələri ilə yanaşı, yol infrastrukturunun sistemli yeniləşdirilməsi və müasir standartlar səviyyəsində avtomobil yolları şəbəkəsinin genişləndirilməsi indi də diqqət mərkəzində saxlanılır. Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin yenidən qurulması artıq başa çatmaq üzrədir. Getdikcə dərinləşən yeniləşmə prosesləri fonunda yol infrastrukturunun sürətlə yaxşılaşması Azərbaycanın hazırkı dinamik inkişaf mənzərəsini səciyyələndirən başlıca cəhətlərdəndir.

İnanıram ki, yüksək peşəkarlığa malik kollektiviniz öz üzərinə düşən vəzifələri bundan sonra da dərin məsuliyyət hissi ilə yerinə yetirəcək, ölkəmizin iqtisadi qüdrətinin artırılması naminə böyük əzmkarlıq və qətiyyətlə çalışacaqdır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 noyabr 2018-ci il.**

# Sumqayıt şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində bu gün də sürətlə inkişaf edən Sumqayıt şəhərində qeyri-neft sənayesinin davamlı inkişafının təmin edilməsi, qabaqcıl texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye sahələrinin yaradılması və əhalinin məşğulluğunun artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, o cümlədən gücü 525 MVt olan Elektrik Stansiyası, "Sumqayıt-3" yarımstansiyası tikilmiş, "Azərkimya" İB-nin müəssisələri yenidən qurulmuş, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin "Azgüntex" Zavodu, "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, "Azərsun Holdinq"in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, Mis Emalı Zavodu, "Alyans Tekstil" MMC-nin uniformalar istehsalı fabriki, "Azkontakt" MMC-nin beton boru və beton döşəmə daşı istehsalı müəssisələri yaradılmış, Kimya Sənaye Parkında İnşaat Kimyəviləri Zavodu, "Tabaterra" QSC-nin tütün məmulatları istehsalı fabriki, Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu, pestisid və aqro-kimyəvi məhsulları, xortum və fitinq birləşmələri, sürtkü yağları, polipropilen qurğusu, elektron təhsil avadanlığı, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, Məlumatların Emalı Mərkəzi, "STP" MMC-nin müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış 13 zavodu, "Azərtexnolayn" MMC-nin polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodları istifadəyə verilmiş, 65 mindən çox yeni iş yeri açılmışdır.

Bununla yanaşı, şəhərdə sosialyönümlü bir sıra infrastruktur layihələri də yerinə yetirilmiş, o cümlədən Olimpiya və Paralimpiya İdman Kompleksləri, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Uşaq İncəsənət Məktəbi, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binası inşa edilmiş, 1 saylı Şəhər Mərkəzi Xəstəxanasının, "Kimyaçılar" Mədəniyyət Sarayının, Sumqayıt Dövlət Dram Teatrının, Tarix Muzeyinin, 1 saylı Uşaq-Gənclər İdman Məktəbinin, 3 saylı Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbinin binaları əsaslı təmir olunmuş, "ASAN xidmət" Mərkəzi fəaliyyətə başlamış, 22 ümumtəhsil müəssisəsi istifadəyə verilmiş, 106 hektar ərazidə dənizkənarı bulvar-kompleksi salınmış, geniş abadlıq-quruculuq işləri görülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Sumqayıt şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və abadlıq-quruculuq işlərinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Sumqayıt şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi və abadlıq-quruculuq işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə 5,0 (beş) milyon manat, o cümlədən 18 çoxmənzilli binanın istismara yararsız 62 liftinin yenilənməsi üçün 2,5 milyon (iki milyon beş yüz min) manat, abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün 2,5 milyon (iki milyon beş yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 noyabr 2018-ci il.**

# Sumqayıt şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Sumqayıt şəhərində 1176 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 noyabr 2018-ci il.**

# Sumqayıt şəhərində avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Sumqayıt şəhərində avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən işlərin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 noyabr 2018-ci il.**

# Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Bərdədə vətəndaşlarla görüşüb

**Azərbaycan Respublikası Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Bərdə şəhərində vətəndaşlarla görüşüb.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, görüşdə Bərdə ilə yanaşı, Yevlax, Tərtər və Ağdam rayonlarının da sakinləri iştirak edib.

Əvvəlcə nazir Ramin Quluzadə və Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıblar.

Görüşdə vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üçün nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Əksər müraciətlər yerindəcə öz müsbət həllini tapıb.

Müraciətlər daha çox telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması,




marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul kimi məsələləri əhatə edib.

Bəzi vətəndaşlar tərəfindən qaldırılan məsələlər nazirliyin səlahiyyətlərinə aid olmadığı üçün müvafiq qurumlara ünvanlanması üzrə qeydiyyata alınıb.

Qeyd edək ki, görüş mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin noyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilib.

**AZƏRTAC**

# AZƏRTAC və Pakistanın DND xəbər agentliyi informasiya mübadiləsi aparacaqlar

**Pakistanın "Dispatch News Desk" (DND) xəbər agentliyi AZƏRTAC ilə informasiya mübadiləsi sahəsində əməkdaşlıq etmək niyyətindədir.**

İki media qurumu arasında əlaqələr yaradılması noyabrın 16-da AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovun DND xəbər agentliyinin baş redaktoru Ağa İqrar Harun ilə görüşdə müzakirə olunub.

Azərbaycan ilə Pakistanı sıx dostluq və qardaşlıq münasibətləri birləşdirdiyini deyən Aslan Aslanov bütün sahələrdə olduğu kimi KİV-lər arasında da əməkdaşlığın genişləndirilməsinin önəmli olduğunu bildirib. Qeyd olunub ki, Pakistan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən dövlət kimi Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin zəbt edilməsini daim pisləyir, bu işğalçı ölkəni beynəlxalq səviyyədə tanımır. "Regionun nüfuzlu ölkələrindən olan Pakistanın media qurumları ilə informasiya mübadiləsinin genişləndirilməsini zəruri hesab edirik. Bu, iki ölkənin və xalqlarımızın daha da yaxınlaş-



masında, cəmiyyətlərimizdə məlumatlılığın artırılmasında mühüm əhəmiyyət kəsb edir", - deyə İdarə Heyətinin sədri qeyd edib. Vurğulanıb ki, DND agentliyi ilə ikitərəfli əməkdaşlıq qarşılıqlı xəbər yayımının gücləndirilməsi istiqamətində müsbət addım olacaq.

Azərbaycan Pakistanın xarici siyasətində özünəməxsus yer tutur. Bu barədə danışan Ağa İqrar Harun hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü dəstəkləməsini qarşılıqlı münasibətlərdə vacib amil olduğunu qeyd edib. İnformasiya sahəsində əlaqələrin inkişaf etdirilməsi təşəbbüsünü dəstək verən baş redaktor AZƏRTAC-ın xəbərlərinin öz kanalları vasitəsilə Pakistan cəmiyyətinə çatdırmağa hazır olduqlarını söyləyib. "Agentliyimiz Azərbaycanla bağlı xəbərlərin yayılmasına diqqətlə yanaşır. Biz sizin xəbərləri urdu dilində də yaymaq istəyirik. Ümid edirik ki, bizim əməkdaşlığımız Pakistanla bağlı xəbərlərin də Azərbaycanda daha geniş yayılması üçün şərait yaradacaq", - deyə baş redaktor qeyd edib.

Görüşdə AZƏRTAC-ın hazırda Dünya Xəbər Agentlikləri Konqresi, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri (OANA) təşkilatına sədrliyi, bu beynəlxalq qurumlar çərçivəsində Pakistanın APP və PPİ agentlikləri ilə əməkdaşlıq etməsi barədə qonağa məlumat verilib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Azərbaycan Prokurorluğunun nümayəndələri Praqada beynəlxalq konfransda iştirak ediblər

Praqada İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin (ACN) Hüquq-Mühafizə Orqanları Şəbəkəsinin 9-cu görüşü keçirilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, 27 ölkədən hüquqşünasların qatıldıqları görüşdə ölkəmizi Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Heydər Məmmədov və Baş İdarənin böyük prokuroru Elnur Musayev təmsil ediblər.

Çexiyanın baş prokuroru Pavel Zemanın, Rumıniyanın Antikorrupsiya Prokurorluğunun rəhbəri Anca Jurmanın və ACN-in rəhbəri Olga Savranın sədrlik etdikləri tədbirin əsas müzakirə mövzuları ötən il Şəbəkənin Bakıda keçirilmiş 8-ci görüşü zamanı müəyyən olunub. Çıxış edənlər Bakı görüşünün yüksək təşkilatçılıq səviyyəsindən məmnunluqlarını bildirib və buna görə minnətdarlıqlarını çatdırıblar.

Fəal müzakirələr və geniş fikir mübadiləsi formatında keçiri-



lən tədbirdə korrupsiya hallarının aşkarlanması, məlumat azadlığı, rüşvətin verilməsi, mərkəzləşdirilmiş kredit və hesab reyestrləri, prokurorların müstəqilliyi, informasiya texnologiyaları və kriptovalyutalar vasitəsilə törədilən cinayətlərin araşdırılması, süni intellektin istintaqda tətbiqi, müxtəlif hüquqi sahələr üzrə beynəlxalq əməkdaşlıq və digər məsələlər müzakirə olunub. Həmçinin korrupsiya cinayətlərinin araşdırılması məqsədilə ixtisaslaşmış hüquq-mühafizə orqanlarının tətbiq etdiyi yeni araşdırma və təhlil vasitələri barədə məlumat verilib. Çıxışlarda müasir çağırışlara cavab vermək məqsədilə səylərin birləşdirilməsinin və davamlı təcrübə mübadiləsinin vacibliyi vurğulanıb. Bu qəbildən olan cinayətlərin istintaqı zamanı talanmış və ya digər üsullarla ələ keçirilmiş əmlakın qaytarılması üzrə beynəlxalq əməkdaşlıq şəbəkəsinin fəaliyyəti, geniş həcmli sənədlərin təhlili üçün süni intellektə dayanan proqramların tətbiqi imkanları barədə məruzələr iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Tədbirin üçüncü sessiyasında "Prokurorluğun institusional müstəqilliyi: çağırışlar və ən yaxşı təcrübələr" mövzusunda çıxış edən Elnur Musayev bu sahədə mövcud beynəlxalq standartlar barədə məlumat verib, onların təcrübədə tətbiqinə dair təhlili nəticələri görüş iştirakçılarının diqqətinə çatdırıb. Məruzədə Avropanın qabaqcıl ölkələrində prokurorluğun istintaq və məhkəmə baxışı mərhələlərinə münasibətdə dəyişən rolunun tədqiqinə əsasən fərqli mexanizmlərin üstünlük və çatışmazlıqları barədə nəzəri fikirlər irəli sürülüb. Beynəlxalq təşkilatların bu sahədə qəbul etdiyi standartların reallaşdırılması ilə bağlı problemlərə toxunan Azərbaycan nümayəndəsi fərdi yanaşmanın vacibliyini praktiki misallarla əsaslandırıb.

Görüşün sonunda növbəti addımların və Şəbəkənin fəaliyyət prinsiplərinin təkmilləşdirilməsinin müzakirəsi zamanı qurumun fəaliyyətində davamlılığın təmin edilməsi, iştirakçıların dairəsinin sabitləşdirilməsi və konkret əməkdaşlar tərəfindən əlaqələndirilməsi, təqdim edilən uğurlu təcrübə haqqında məlumatın iştirakçı ölkələrdə yayılması, əməkdaşlıq nümunələrinin təbliği və s. məsələlərlə bağlı qərarlar qəbul olunub. Tədbirdə Şəbəkənin növbəti iclasının gələn il Mərkəzi Asiya bölgəsində keçirilməsi barədə razılıq əldə edilib.

**AZƏRTAC**



# BMU-da karyera sərgisi

Bakı Mühəndislik Universitetinin tələbələri elmi müsabiqələrdə uğur qazanmaqla yanaşı ictimai işlərdə də aktivlik nümayiş etdirirlər. Universitetdə tələbələrdən ibarət dərnəklər və klublar tərəfindən tədbirlərin təşkili təqdirəlayiq haldır. "Sənaye mühəndisliyi" klubu da hər il fərqli və tələbələrin karyeralarına faydalı olan tədbirlər təşkil edir.

Bu tədbirlərdən biri də bu gün universitetdə Müəssisələrlə Əlaqələr və Karyera Departamentinin dəstəyi ilə təşkil olunan "Karyera Sərgisi"dir. Sərgidə onlarla yerli və beynəlxalq şirkət iştirak edib. İştirakçı şirkətlər mövcud vakansiyalar barədə tələbələrə ətraflı məlumat verib və vakansiyaya uyğun gələn tələbələrin CV-ni qəbul ediblər. Gün ərzində davam edən sərgiyə maraq yüksək olub.

**M.MİRZƏ,**
**"Respublika".**

# Azərbaycan Gənclərinin VIII Forumunun iştirakçıları ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər

**Azərbaycan Gənclərinin VIII Forumunun iştirakçıları noyabrın 16-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə güllər və əklil qoyublar.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirələri anılıb, məzarları üstünə gül dəstələri qoyulub.

Daha sonra Şəhidlər xiyabanına gedən forum iştirakçıları ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə güllər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

**AZƏRTAC**

# Gürcüstanın maliyyə naziri ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib

**Ölkəmizdə səfərdə olan Gürcüstanın maliyyə naziri İvane Maçavarianinin rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 16-da Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, abidəsi önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, sonra Şəhidlər xiyabanına gedən nümayəndə heyəti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

**AZƏRTAC**

# Akademik Ramiz Mehdiyevin “Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix” kitabı: bilinməyən həqiqətlərin tarixi təsdiqi

## *AMEA-nın Mərkəzi Elmi Kitabxanasında kitabın Livanda ərəb dilinə tərcümə edilmiş nəşrinin təqdimatı keçirilib*

**Noyabrın 16-da AMEA-nın Fəlsəfə İnstitutunun təşkilatçılığı ilə Mərkəzi Elmi Kitabxanada Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin “Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix” kitabının Livanda ərəb dilinə tərcümə edilmiş nəşrinin təqdimatı keçirilib.**




AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində çıxış edən AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli kitabda münaqişənin yaranma səbəblərini izah edən, habelə Dağlıq Qarabağın Azərbaycana mənsub olmasını dəqiq göstərən müxtəlif tarixi mənbələrin əksini tapdığını söyləyib. Bildirib ki, tədqiqatda antik və orta əsrlər dövrünə aid çoxsaylı məxəzlər, habelə yeni və müasir dövrün sənədləri əsasında Cənubi Qafqazın həqiqi tarixi, həmçinin ermənilərin XIX əsrin əvvəllərində bu ərazilərə köçürülməsi məsələləri əhatə olunub.



Akademik qeyd edib ki, nəşrdə XIX əsrdən etibarən Dağlıq Qarabağda, eləcə də tarixi Azərbaycan ərazisi olan indiki Ermənistan Respublikasında ermənilərin sayca üstünlük təşkil etməyə başlamasının çar imperiyasının məqsədyönlü siyasətinin nəticəsi olduğu oxucuya çatdırılıb. İsa Həbibbəyli kitabda, eyni zamanda, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətindən bəhs olunduğunu deyib. O, əsərin ərəb dilində nəşrinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasında, erməni yalanlarına qarşı mübarizədə əsaslı rol oynayacağını vurğulayıb.

İsa Həbibbəyli akademik Ramiz Mehdiyevin ölkəmizdə böyük rezonans doğurmuş “Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix” kitabının bu yaxınlarda Livanın paytaxtı Beyrut şəhərində “Delta” Dəriş Araşdırmalar Mərkəzində nəşr edildiyini bildirib. Qeyd edib ki, bu qiymətli əsər bir çox dillərə, o cümlədən fransız, ingilis, türk, rus dillərinə tərcümə olunub. Kitabı ərəb dilinə əlcəzairli tədqiqatçı, professor Zəim Xənişlavi tərcümə edib. “Ərəb dilinə tərcümə olunmuş “Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix” kitabını AMEA-nın Ədəbiyyat və Fəlsəfə institutlarının ərəb dili üzrə mütəxəssisləri redaktə etdilər. Onlar mənə dedilər ki, tərcüməçi coğrafi adlarda, faktlarda heç bir yanlışlığa yol verməyib”, - deyə AMEA-nın vitse-prezidenti bildirib. O, mükəmməl tərcüməyə görə Zəim Xənişlaviyə, eləcə də bu işdə əməyi olan hər kəsə təşəkkür edib.

AMEA-nın vitse-prezidenti kitabın çapında və ölkəmizə gətirilməsində Azərbaycanın Livan və Əlcəzairdəki səfirliklərinin müstəsna xidmətləri olduğunu bildirib.

AMEA-nın Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə isə tərcümə prosesindən danışıb. Qeyd edib ki, professor Zəim Xənişlavi V Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edib və burada akademik Ramiz Mehdiyevlə görüşərək ondan bu kitabın tərcüməsinə və nəşrinə icazə alıb. Tərcüməçinin öyrənilən probleme bələdliyi ərəb oxucusuna Qarabağ problemini aydın şəkildə başa düşmək imkanı verir.

Sonra Zəim Xənişlaviyə Azərbaycan-ərəb əlaqələrinə verdiyi töhfəyə görə AMEA-nın Fəlsəfə İnstitutunun fəxri doktoru diplomu təqdim olunub.

Belə bir sanballı kitabı ərəb dilinə tərcümə etməsindən qürur duyduğunu vurğulayan Zəim Xənişlavi deyib: “Akademik Ramiz Mehdiyevin “Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix” kitabını Fransada bir mağazadan alıb oxudum. Oxuduqca hiss elədim ki, bu kitab təkcə kitab deyil, həm də bütöv bir tarixdir. Azərbaycan həqiqətlərini ərəb dünyasına çatdırmaq üçün kitabı ərəb dilinə tərcümə etmək qərarına gəldim və bu işi uğurla başa çatdırdım. Düşünürəm ki, bu kitabı tərcümə etməklə düzgün addım atmışam. Çünki bu kitab dünyanı xilas etmək üçün çox dəyərli bir vəsaitdir”.

Xalq yazıçısı, Milli Məclisin deputatı Elmira Axundovanın: “Livanda güclü erməni lobbisi var. Siz bu işi görərkən ermənilərin hücumlarına məruz qaldınızmı?” sualına cavabında Zəim Xənişlavi kitabda elmi dəlillərin tutarlı olmasına görə onların təzyiqləri ilə qarşılaşmadığını deyib.

Kitabın məziyyətlərindən söhbət açan Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əliyev qeyd edib ki, kitabın ərəb dilinə tərcümə olunması çox böyük bir hadisədir. Kitab oxucuya problemin mahiyyətinə varmağa, münaqişənin səbəb və nəticələrini görməyə imkan verir. Diqqətə çatdırılıb ki, kitabda xarici mənbələrdən istifadə olunması onun sanbalını daha da artırır.

Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, professor Hikmət Babaoğlu isə “Dağlıq Qarabağ - məxəzlərdən oxunmuş tarix” kitabının həqiqətləri öyrənmək istəyənlər üçün mötəbər mənbə olduğunu bildirib. O, kitabın digər dillərə də tərcümə olunmasının vacibliyini vurğulayıb.

Tədbirdə, həmçinin Fəlsəfə İnstitutunun şöbə müdiri, professor Rəna Mirzəzadə, həmin müəssisənin aparıcı elmi işçisi Sənan Həsənov, Bakı Dövlət Universitetinin kafedra müdiri, professor İzzət Rüstəmov və başqaları nəşrin tərcüməsinin önəminə toxunub, kitabın oxucuya problemin mahiyyətinə varmağa, münaqişənin səbəb və nəticələrini görməyə imkan yaratdığını qeyd ediblər.

**AZƏRTAC**

# Xəstəxanada tibbi xidmət müasir tələblər səviyyəsində

**Bu gün Azərbaycan özünün ən dinamik iqtisadi inkişaf dövrünü yaşayır. Təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi-sosial islahatların son 15 ildə Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müasir reallıqlar nəzərə alınmaqla davam etdirilməsinin nəticəsidir ki, həyatımızın bütün sahələrində uğurlara imza atılmış, hərtərəfli yüksək inkişaf təmin olunmuşdur. Bütün sahələrdə əldə edilmiş möhtəşəm nailiyyətlər ölkəmizi inkişaf etmiş dünya dövlətləri sırasına çatdırmışdır. Bir sözlə son 15 ildə cənab Prezidentin rəhbərliyi altında Azərbaycanın inkişafı naminə görülən məqsədyönlü işlərin həcmi olduqca böyükdür və bütün bunların təməlində isə həm də xalq-iqtidar birliyi dayanır.**



Son illər bütün sahələrdə olduğu kimi ölkənin səhiyyə sahəsində də geniş, məqsədyönlü islahatlar aparılır, bu sahənin inkişafı dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Bütün səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində həyata keçirilən mühüm tədbirlər ölkə səhiyyəsinin ən müasir dünya tələbləri səviyyəsində olmasını təmin etmişdir. Sevindirici haldır ki, Azərbaycanın səhiyyəsi öz inkişaf səviyyəsinə, texniki təchizatı və kadr potensialına görə heç də bu sahədə ən yüksək inkişafa nail olan ölkələrdən geri qalmır, hətta bəzi hallarda onları qabaqlayır. Onu da böyük məmnunluqla vurğulamaq lazımdır ki, əvvəllər ölkəmizdə aparılması mümkün olmayan ən çətin cərrahi əməliyyatlar indi yüksək ixtisaslı, peşəkar həkimlərimiz tərəfindən uğurla həyata keçirilir. Ölkəmizdə insan sağlamlığının qorunması ən vacib məsələlərdən biridir və əhalinin sağlamlığının tam olaraq təmin olunması üçün profilaktik tədbirlər, kompleks işlər aparılır. Bunun üçün respublikamızın bütün səhiyyə-tibb ocaqlarında hər cür, dünyada mövcud olan ən yeni texnoloji, texniki avadanlıqlar mövcuddur.

Ölkəmizin bütün tibb müəssisələrində lazımi avadanlıqlar var və ən yüksək standartlar tətbiq olunur. Respublikamızın hər yerində, istər paytaxt Bakıda, istərsə də bölgələrimizdə ən müasir, gözəl xəstəxanalar tikilir və əhaliyə yüksək səviyyəli tibbi xidmət göstərilməsi üçün bütün şərait yaradılıb. Bu xəstəxanaların tikintisi və ya əsaslı olaraq təmir edilməsi son illər ərzində dövlətimiz, onun başçısı cənab İlham Əliyev tərəfindən göstərilən diqqət və qayğının, bu sahəyə qoyulan vəsaitin əyani təzahürüdür. Son on beş ildə Azərbaycanda 600-dən çox yeni tibb müəssisəsi yaradılıb, yenidən tikilib və ya əsaslı təmir olunub. Cənab Prezident də öz çıxışlarında qeyd edib ki, bu gün elə bir bölgəmiz yoxdur ki, orada yeni-yeni səhiyyə obyektləri tikilməsin, istifadəyə verilməsin. Azərbaycanda tibbi xidmətin səviyyəsi artır. Mənim təşəbbüsümlə bir neçə il ərzində artıq kütləvi müayinədənkeçmə proqramı həyata keçirilir. İndi hər bir vətəndaşın heç olmasa ildə bir dəfə tibbi müayinədən keçməsi üçün hər bir rayonda bütün imkanlar mövcuddur. Bu il də keçən ildəki kimi 5 milyondan çox vətəndaş bu imkanlardan istifadə edib. Bundan başqa icbari sığorta sisteminin tətbiqinə başlanmışdır və artıq iki şəhərdə bu sistem mövcuddur. Cənab İlham Əliyev onu da vurğulayıb ki, “Azərbaycanda səhiyyə sistemində aparılan islahatlar, görülən işlər dünya səviyyəsində gedir. Hətta deyə bilərəm ki, biz artıq Azərbaycan standartlarından da danışa bilərik”.





Azərbaycanda səhiyyənin inkişafı, dünya standartlarına uyğunlaşdırılması və digər mühüm işlərdən danışarkən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın bu sahənin daha da modernləşməsi, yeni səhiyyə ocaqlarının tikilməsi və ən müasir texniki avadanlıqlarla təchizatı istiqamətində gördüyü işləri də xüsusilə qeyd etmək lazımdır. İxtisasca həkim olan Mehriban xanım bu sahənin inkişafını daim diqqətdə saxlayır, həkimlərin sosial məsələlərinin həlli, əhaliyə tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi və digər mühüm işlərin həyata keçirilməsi üçün səmərəli fəaliyyət göstərir. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi proqram və layihələr də bu sahənin inkişafına güclü təkan vermişdir.

Azərbaycanda ölkə əhalisinin sağlamlığının tam şəkildə qorunması qeyd olunduğu kimi bu gün səhiyyə sistemində çalışanların qarşısında duran ən əsas məsələlərdən biridir və bu işlər ölkəmizin tibb ocaqlarında peşəkar həkim kollektivləri tərəfindən uğurla həyata keçirilir. Tibb ocaqlarında insanların müalicə və diaqnostik müayinəsi üçün yaradılmış şərait müsbət nəticələr verir, insanlarımız öz sağlamlıqlarına qovuşur. Onu da xüsusilə qeyd edim ki, səhiyyə sahəsində son illərdə əldə olunan uğurlarda və bu sahənin daha da inkişaf etməsi, müasirləşməsi istiqamətində səhiyyə naziri Oqtay Şirəliyevin məqsədyönlü, səmərəli fəaliyyətini və xidmətlərini vurğulamaq lazımdır. Hörmətli Oqtay Şirəliyevin xüsusi diqqəti və köməkliyi sayəsində Respublika Klinik Xəstəxanasının hər iki korpusunda təmir-tikinti, yenidənqurma işləri aparılıb, xəstəxananın bütün şöbələri müasir, dünyada mövcud olan ən yeni texniki avadanlıqlar və cihazlarla təmin olunub. Tamamilə yeni görkəm alan xəstəxanamızda peşəkar həkimlərimiz tərəfindən müraciət edən xəstələrə keyfiyyətli tibbi xidmət göstərilir, onların qısa bir müddət ərzində öz sağlamlıqlarına qovuşmasına çalışırlar. Göstərilən keyfiyyətli tibbi xidmətin nəticəsidir ki, son illər müalicə üçün Respublika Klinik Xəstəxanasına müraciət edənlər xeyli çoxalmışdır.

Xəstaxana insanların müayinə və müalicəsini tam şəkildə aparmaq üçün Maqnit rezonans və kompütertomoqraf, rentgen aparatı, ultrasəs, süni tənəffüz və s. avadanlıqlarla təchiz edilmişdir. İki korpusdan ibarət olan xəstəxananın I korpusunda ginekologiya şöbəsi, kardiologiya, allerqologiya I sinir, II sinir, nefrologiya, endokrinologiya, qastroentologiya, II korpusda isə ortopediya—böyük ortopediya—uşaq, BBQ xəstəlik—böyük, BBQ xəstəlik—uşaq, üst çənə cərrahı—böyük, üz çənə cərrahı—uşaq, I Ümumi cərrahiyyə, II Ümumi cərrahiyyə, hemotologiya, otalmologiya, urologiya və reanimasiya şöbəsi fəaliyyət göstərir. Ötən il xəstəxanada böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin müalicəsi üçün II Dializ şöbəsi də istifadəyə verilmişdir və yeni şöbənin açılışında səhiyyə naziri, hörmətli Oqtay Şirəliyev iştirak etmişdir. Xəstəxananın yardımçı şöbələrində isə şüa-diaqnostika, laboratoriya, müalicə, bədən tərbiyəsi və fizioterapiya, qanköçürmə işləri aparılır.

Dövlət Proqramı çərçivəsində dağınıq-skeloroz, hemotoloji xəstəliklərin müayinə və müalicəsi, xəstələrin dərman preparatlarından pulsuz istifadəsi təmin olunur. Xəstəxanada mərkəzləşdirilmiş yeməkxana fəaliyyət göstərir və müalicə olunan xəstələrə gündə 3 dəfə keyfiyyətli isti yemək verilir. Bundan əlavə 15 xəstəxana da yeməklə tam təmin olunur. Son zamanlar xəstəxananın ərzaq məhsulları ilə təminatı işləri də xeyli yaxşılaşmışdır. Son 9 ay ərzində xəstəxanaya 893000,00 məbləğində ərzaq məhsulları alınmışdır.

Respublika Klinik Xəstəxanasında fəaliyyət göstərən həkimlərin sayı 367, orta tibb bacılarının sayı isə 727 nəfərdir. Ötən 9 ayda xəstəxanaya qəbul olunan xəstələrin sayı 17391 nəfər, çarpayıların sayı—785 ədəd olmuşdur. Xəstəxanada 9 ayda 5587 nəfərdə cərrahi əməliyyatlar aparılmış, ambulator müraciətlərin sayı isə 31165 nəfər olmuşdur. Cari ilin yanvar ayının 1-dən etibarən 50 yerlik 2-ci hemodializ şöbəsi istifadəyə verilmişdir. Yeni fəaliyyətə başlayan bu şöbəyə ötən 9 ayda yeni avadanlıqlar verilmişdir. Bunlardan Dializ aparatı—humanisa—2017—19 ədəd, dializ aparatı—2012—21 ədəd, su təmizləmə sistemi Osmos tipli 2012—2 ədəd, dializ məhsulu hazırlayan aparat—2 ədəd, elektrik motorlu çarpayı—40 ədəd, Pansuman arabası—3 ədəd, Multipulyus biokimyəvi analizator—1 ədəd, CH monokulyar mikrosqep LED—1 ədəd, Defiblyator Asinxronik—sinxronik 1 ədəd. Keçən 9 ayda İnnovasiya və Təchizat Mərkəzindən və digər təşkilatlardan əvəzsiz olaraq avadanlıq, dərman və sarğı materialları daxil olmuşdur. İnnovasiya Mərkəzindən dərman və sarğı materialları, Azərtibbitəchizatdan dərmanlar, Azərtibbitt tex. təminat zavodundan oksigen, İnnovasiya Mərkəzindən inventar və avadanlıq, Hematologiya İnstitutundan—qan, Yasamal Gigiyena və Epidemiologiya Mərkəzindən—vaksin, Bakı Sağlamlıq Mərkəzindən—dərman və s.

Onu da qeyd edim ki, hər il olduğu kimi 2018-ci ilin ötən 9 ayında da əlamətdar günlərlə bağlı bir sıra tədbirlər və aksiyalar keçirilmişdir. Ulu öndərimiz Heydər Əliyevin doğum günü ərəfəsində, Novruz və Qurban bayramlarında aztəminatlı aillərə köməklik məqsədilə pulsuz olaraq aksiyalar təşkil olunub. Xəstəxananın 26 nəfərdən ibarət müxtəlif ixtisaslar üzrə həkim biriqadası 11-15 yanvar 2018-ci il tarixində Naxçıvanda Şərur Rayon Mərkəzi Xəstəxanasında əhalini tibbi müayinədən keçirmiş və cərrahi əməliyyatlar aparmışlar. Yüksəkixtisaslı həkimlərimiz tərəfindən 4156 nəfər hərtərəfli müayinədən keçirilmiş, 162 nəfərdə isə müxtəlif cərrahi əməliyyatlar aparılmışdır. **Bu yaxınlarda akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının 14 nəfərdən ibarət həkim komissiyası Ağdam rayon əhalisinə tibbi xidmət göstərmək üçün Səhiyyə Nazirliyinin razılığı əsasında Ağdam rayonuna ezam olunmuşdur. Mənim rəhbərliyimlə komissiyanın tərkibinə 2 nəfər tibb elmləri doktoru, 4 nəfər tibb elmləri namizədi, həmçinin yüksəkixtisaslı həkimlər daxil edilmişdir. Rayonda 320 nəfər hərtərəfli tibbi müayinədən keçirilmiş və onlara müalicə təyin edilmişdir. 5 nəfər sakin isə əməliyyat olunmuşdur. Bunlardan 7 nəfərin daha ağır cərrahi əməliyyata ehtiyacı olduğunu nəzərə alaraq onların Respublika Klinik Xəstəxanasına gətirilməsi məsləhət olunmuşdur.**

Mirqasımov adına Respublika Klinik Xəstəxanasının həkimləri, tibb işçiləri bundan sonra da əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi istiqamətində öz bilik və bacarıqlarını əsirgəməyəcək, xəstələrə sağlamlıq, şəfa bəxş edəcəklər.

**Telman İBADOV,**
**Mirqasımov adına Respublika Klinik Xəstəxanasının baş həkimi, Azərbaycan Respublikasının Əməkdar həkimi, Səhiyyə Nazirliyi Kollegiyasının üzvü, Naxçıvan Ali Məclisinin deputatı.**

# Ölkədə suvarılan torpaqların hidrogeoloji-meliorativ vəziyyəti

**Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir. İclasda ölkə iqtisadiyyatının dinamik və yüksələn xətlə inkişaf etdiyi xüsusilə vurğulanmış, bütün aparıcı sahələr, o cümlədən meliorasiya və su təsərrüfatı sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr təhlil edilmişdir.**

Ölkə başçısı öz çıxışında meliorativ tədbirlərlə bağlı konkret addımlar atıldığını xüsusilə vurğulamışdır. Respublika Prezidenti cənab İlham Əliyev demişdir: “Yuxarı Mil kanalının tikintisi nəticəsində 1900 hektar, Hacıqabul rayonunun Muğan, Padar qəsəbələrində, Qarasu kəndində görülən işlər 2720 hektar, Abşeron yarımadasında Abşeron magistral kanalında yenidənqurma işlərinin aparılması nəticəsində 7 min hektar, Şəmkir-Samux-Goranboy suvarma kanalının ikinci növbəsi təxminən 12 min hektar, Neftçala magistral kanalının nasos stansiyasının birlikdə tikintisi 12 min 500 hektar, Araz çayının yeni qolunun beton üzlüyə alınması 13 min 100 hektar, Şabran rayonu 1700 hektar, Qax rayonu 900 hektara yaxın, Xəzər, Pirallahı, Xızı rayonlarında meyvə bağlarının salınması 1600 hektar, Xəzər rayonunun Qoşaqışlaq ərazisində 750 hektar, Sabirabad, Salyan rayonlarında yerləşən qış otlaqlarında 11 min hektar, Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əlilənbəyli kəndinin əkin sahələrinin təminatının yaxşılaşdırılması üçün “H” kanalının yenidən qurulması 7500 hektar, Qazax rayonunun Xanlıqlar, Kəmərli, Aslanbəyli, Qaymaqlı, İkinci Şıxlı kəndlərinin əkin sahələrinin su ilə təminatı üçün 500 hektar, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin suvarılması ilə bağlı 280 hektar, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması nəticəsində Xızı, Siyəzən, Şabran rayonlarında 20 min hektara yaxın və o cümlədən subartezian quyular 8700 hektar. Əlbəttə ki, biz məhsuldarlığı da artıracağıq. Artıq təkliflər hazırlanır, gələn il biz bu istiqamətdə əlavə işlər görəcəyik”.

Respublikamızda yerinə yetirilən meliorasiya və su təsərrüfatı layihələri fonunda Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin əsas struktur bölmələrindən biri olan Hidrogeoloji-Meliorativ Xidmət İdarəsi də (HGMXİ) respublikamızın 1 252 087 hektar kənd təsərrüfatına yararlı suvarılan torpaqlarında 8692 rejim-müşahidə quyusu, həmçinin əsas kanal və kollektorlar üzərindəki 18 hidrometrik məntəqə vasitəsilə məqsədli xidmətlər göstərir. Kənd təsərrüfatına yararlı suvarılan torpaqlar üçün xüsusi əhəmiyyət kəsb edən torpaqların hidrogeoloji-meliorativ şəraitinin və kollektor-drenaj şəbəkəsinin texniki vəziyyətinin öyrənilməsi, qrunt sularının rejimi və kimyəvi tərkibi üzərində stasionar müşahidələrin aparılması, qrunt və qrunt-su nümunələrinin analitik təhlili, eləcə də rejim-müşahidə və çöltədqiqat materialları əsasında kadastr hesabatlarının, həmçinin elektron xəritələrin işlənib hazırlanması HGMXİnin əsas fəaliyyət sahələrindəndir.

HGMXİ-nin xarakterik fəaliyyət sahələrindən biri də Xaçmaz, Şabran, Siyəzən, Abşeron, Quba, Qusar, Xızı inzibati rayonlarının, eləcə də Bakı və Sumqayıt şəhərlərinin suvarılan torpaqlarını əhatə edən Şimal Regional Zonasıdır. Məlum olduğu kimi, Dövlət Neft Fondunun vəsaiti hesabına 2013-cü ildə “Samur-Abşeron suvarma sisteminin yenidən qurulması” layihəsi çərçivəsində mühüm əhəmiyyət kəsb edən su elektrik stansiyası ilə birlikdə ümumi su tutumu 268 milyon kubmetr olan Taxtakörpü su anbarının, Taxtakörpü-Ceyranbatan və Vəlvələçay-Taxtakörpü kanallarının tikintisi müvəffəqiyyətlə başa çatdırılıb. Həmin işin icrası ilə əlaqədar “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə Türkiyənin “Təməlsu” məsləhətçi şirkətinin hazırladığı, “Evrascon” ASC və “Körpü-Bina-Tikinti” MMC tərəfindən icra olunan layihələrə əsasən “Samur-Abşeron suvarma sisteminin yenidən qurulması” layihəsi zonasında yerləşən Şabran rayonunda 14 min 38 hektar, Siyəzən rayonunda 6 min 972 hektar, Xızı rayonunda isə 9 min 609 hektar olmaqla cəmi 30 min 619 hektar yeni suvarılan torpaq sahələri müəyyən edilib. “Şabran, Siyəzən və Xızı rayonlarında mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi” layihəsinə daxil olan Xızı rayonu üzrə hazırlanan layihədə cəmi 12 min 579 hektar sahənin 9 min 609 hektarında meliorativ tədbirlər aparılmaqla yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və 2 min 970 hektarında mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılması nəzərdə tutulur. “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyəti tərəfindən Dövlət Neft Fondunun vəsaiti hesabına 2014-cü ildən 3 min 396 hektar torpaq sahələrində kompleks meliorativ tədbirlərin həyata keçirilmişdir. Yeni istifadəyə verilən 3 min 84 hektar torpaq sahəsinin 514 hektarı dövlət, 1715 hektarı bələdiyyə və 855 hektarı xüsusi mülkiyyətdədir.

Bu torpaqların 170 hektarında ən son texnologiyalara əsaslanan yağış üsulu ilə suvarma sistemi quraşdırılıb. Bu sistem respublikada təbii təzyiq hesabına çiləmə aparan yeganə sistemdir. Xızı rayonunda 2014-cü ildə əlavə olaraq 3 min 715 hektar, o cümlədən 2 min 315 hektar yeni suvarılan torpaqların istifadəyə verilməsi və 1400 hektar mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması məqsədilə meliorativ tədbirlər başa çatdırılmışdır. Bununla da 2015-ci ildə Xızı rayonu üzrə 7 min 111 hektar, o cümlədən 5 min 399 hektar yeni suvarılan torpaqların istifadəyə verilməsi və 1712 hektar mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması təmin edilmişdir.



Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə melioratorların peşə bayramı ilə əlaqədar keçirilən iclasdakı çıxışında Dövlət Neft Fondundan ayrılmış vəsait hesabına Qusarçay və Caqacuqçay çayları üzərində sugötürücü qurğuların və 14653 metr nəqledici kanalların qurğularla birlikdə tikintisi başa çatdırılaraq, Samur-Abşeron kanalına əlavə suyun verilməsi təmin olunduğunu, eyni zamanda, Xızı və Şabran rayonlarında 2863 hektar yeni suvarılan torpaqların istifadəyə verilməsi üçün kompleks meliorativ tədbirlərin aparılması və 740 hektar mövcud suvarılan torpaqlarda su təminatının yaxşılaşdırılması üçün tikinti işləri tamamlandığını qeyd etmişdir.

2018-ci ildə Şimal Regional Zonanın kənd təsərrüfatına yararlı və nəzarət altında olan suvarılan torpaqların ümumi sahəsi 150 179 hektar, o cümlədən; Xaçmaz rayonu üzrə 50 286 hektar, Şabran rayonu üzrə 18 493 hektar, Siyəzən rayonu üzrə 4 003 hektar, Abşeron rayonu üzrə 15 601 hektar, Quba rayonu üzrə 20 032 hektar, Qusar rayonu üzrə 29 398 hektar, Xızı rayonu üzrə 6 366 hektar, Bakı şəhəri üzrə 3 977 hektar, Sumqayıt şəhəri üzrə isə 338 hektar təşkil etmişdir.

Regional zonanın suvarılan torpaqlarının 23 889 hektar sahəsi drenləşmişdir ki, bundan da 6 289 ha sahədə açıq üfüqi, 17 600 hektar sahədə isə örtülü üfüqi drenaj şəbəkəsi mövcuddur.

Şimal Regional Zonanın həyata keçirdiyi rejim-müşahidə və çöl-tədqiqat işlərinin nəticələri göstərir ki, qrunt suları bütün suvarılan torpaq sahələrində yayılaraq, müxtəlif genezislərdə yatım dərinliyi 1-10 m-ə qədər və daha çoxdur. Şimal RZ-nın 2018-ci ilin 9 ayı üzrə ölçmə və tədqiqat işlərinin göstəricilərinə əsasən, ərazidəki suvarılan torpaqların qrunt sularının yatım dərinliyinə görə paylanması; 1 metrə qədər 386 hektar, 1.0-1.5 m arsında 2 946 hektar, 1.5-2.0 m arasında 10 004 hektar, 2.0-3.0 m arasında 27 748 hektar, 3.0-5.0 m arasında 31 248 hektar, qrunt sularının yatım dərinliyi 5.0 m-dən çox olan sahələr isə 16 151 hektar olduğu müəyyən edilmişdir.

Şimal RZ-da aparılan tədqiqatların nəticələrinə əsasə 0-100 sm dərinlikdəki torpaq qatında şorlaşmamış sahələr 73 292 hektar, zəif şorlaşmış 8 994 hektar, orta şorlaşmış 3 307 hektar, şiddətli şorlaşmış 2 790 hektar təşkil etmişdir. Hesabat dövründə zonada çox şiddətli şorlaşmış torpaqlar müşahidə edilməmişdir.

Şimal Regional Zonasının ötən il qrunt sularının səviyyəsi və minerallaşması üzərində apardığı rejim müşahidələrinin, çöl-tədqiqat işlərinin və analitik təhlillərin nəticələri suvarılan torpaqların meliorativ vəziyyətinin, eləcə də qrunt sularının yatım dərinliyinə, minerallığına və torpaqların şorlaşma dərəcəsinə görə qiymətləndirilməsinə geniş imkanlar yaratmışdır. Müəyyən edilmişdir ki, zonanın suvarılan torpaqlarının hidrogeoloji-meliorativ vəziyyəti 47 399 hektar sahədə yaxşı, 34 898 hektar sahədə kafi, 6 086 hektar sahədə kafi, ancaq pisləşmə təhlükəsi olan, o cümlədən qrunt sularının yolverilməyən dərinliyinə görə 386 hektar, torpaqların şorlaşmasına görə 2 754 hektar, qrunt sularının böhran səviyyəsinə görə isə 2 946 hektar olan torpaqlardır.



Aparılan tədqiqatların nəticələri deməyə əsas verir ki, Şimal RZ-da əsaslı tədbirlər görməklə 31 480 hektar torpaq sahəsinin hidrogeoloji-meliorativ vəziyyəti yaxşılaşdırılmalıdır.

Cari ildə ölkə başçısının Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin qarşısında qoyduğu tapşırıqlar və Dövlət proqramlarından irəli gələn vəzifələr müntəzəm olaraq Hidrogeoloji-Meliorativ Xidmət İdarəsi (HGMXİ) tərəfindən geniş təhlil edilir və idarə bütün imkanlardan istifadə etməklə öz fəaliyyətini bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsinə yönəltmişdir.

**Saleh SADIQOV,**
**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Hidrogeoloji-Meliorativ Xidmət İdarəsinin rəisi.**

# Bakıda Azərbaycan Gənclərinin VIII Forumu keçirilib

**Noyabrın 16-da Bakı Konqres Mərkəzində "Cümhuriyyətin varisləri - Azərbaycanın gələcəyi" devizi altında Azərbaycan Gənclərinin VIII Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, Foruma dövlət və hökumət rəsmiləri, o cümlədən Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi - Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri Azad Rəhimov, Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Tahir Süleymanov, Milli Məclisin deputatları, gənclər təşkilatlarının rəhbərləri, ölkəmizin müxtəlif zonalarından Foruma nümayəndə seçilmiş gənclər, idmançılar, hərbçi gənclər iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Birinci vitse-prezidentin köməkçisi - Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev Azərbaycan Prezidenti İlham Əliyevin Forum iştirakçılarına təbrik məktubunu oxuyub (Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).

Sonra Azərbaycan Gənclərinin VII Forumundan ötən müddətdə ölkəmizdə gənclər sahəsində həyata keçirilən tədbirlər barədə hazırlanan videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən gənclər və idman naziri Azad Rəhimov VIII Forumun ölkəmiz üçün əlamətdar tarixdə - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin qeyd olunduğu ildə keçirilməsindən məmnunluğunu bildirib.

Nazir deyib ki, 1996-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə keçirilmiş Azərbaycan Gənclərinin Forumu ölkə gənclərinin Azərbaycanın gələcəyi olması ilə bağlı ciddi göstəriş və mesaj idi. İlk Forumdan ötən 22 ildə gənclərin həyatında mühüm dəyişikliklərin olduğunu qeyd edən A.Rəhimov diqqətə çatdırıb ki, 1994-2003-cü illər Azərbaycanda gənclərin oyanış və təşkilatlanma dövrü olub. Məhz bu dövrdə ilk gənclər təşkilatları yarandı. Əməkdaşlığın genişlənməsi, məsuliyyətin artması nəticəsində Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının yaradılması gənclərin iştirakına, sosial təşəbbüskarlığına mühüm təkan verdi. Bundan sonra yerli idarələr vasitəsilə regionlardakı gənclərlə iş aparılmağa başlanıldı.

Diqqətə çatdırılıb ki, 2004-2010-cu illərdə - gənclərin ictimai savada yiyələnmə dövründə onların maraqlarının təmin olunması sahəsində ciddi işlər görülüb, Azərbaycan gənclərinin beynəlxalq əməkdaşlığı artıb. 2007-ci ildə ölkədə "Gənclər ili" elan olunub, 2008-ci ildə Azərbaycanın birinci xanımı, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəxri sədrliyi ilə Gənclərin Məşğulluğu üzrə IV Dünya Sammiti, Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadası keçirilib. Prezident İlham Əliyevin bəyan etdiyi "Qara qızılın insan kapitalına çevrilməsi" prinsipi istiqamətində həyata keçirilən tədbirlərin ən böyük təsiri məhz gənclərə olub.

Nazir bildirib ki, gənclər siyasətində 2004-cü ildən yeni inkişaf dövrü başlanıb, bu sahənin maddi-texniki bazası möhkəmlənib. Dövlət büdcəsindən gənclər sahəsinə ayrılan vəsait on il ərzində yüz dəfəyədək artıb. 2005-ci və 2011-ci illərdə Azərbaycan gəncləri ilə bağlı ardıcıl olaraq iki dövlət proqramı qəbul edilib.

2011-2017-ci illərin gənclərin yüksək iştirakçılıq mərhələsi və Azərbaycan gənclər siyasəti təcrübəsinin beynəlxalq səviyyədə tanınması dövrü kimi dəyərləndirildiyini deyən nazir bildirib ki, bu illər, həmçinin gənclərə dövlət dəstəyinin ən sürətlə artdığı dövr olub. Artıq dövlət proqramlarının icrasında, beynəlxalq əməkdaşlığın inkişafında, Azərbaycan maraqlarının xaricdə müdafiəsində gənclər və gənclər təşkilatları daha yüksək fəallıq göstərməyə başlayıblar.

Bildirilib ki, dövlət proqramlarının icrası nəticəsində əsaslı yeniliklər baş verib - Gənclər Fondu yaradılıb, gənclər siyasətinin əsas infrastrukturu olan Gənclər Evi şəbəkəsi genişlənib, Gənclər üçün Prezident Mükafatı təsis olunub.

Bu illərdə əldə olunan uğurlar arasında "Gəncə - 2016-cı ilin Avropa paytaxtı", Virtual Qarabağ İKT Mərkəzinin layihələrini, Dünya Skaut Təşkilatının 41-ci Dünya Konfransının Azərbaycanda keçirilməsini, "Mən azərbaycanlıyam" milli intellektual televiziya yarışmasını və "Müasir Azərbaycan gənci" gündəlik televiziya proqramını qeyd edən nazir bununla yanaşı, yaradıcı gənclərin II və III forumlarının, kompüter oyunları üzrə müsabiqələrin, gənc alimlərin Avropa və dünya konfranslarının təşkilini, "İstedadların hazırlığı laboratoriyası"nı, milli intellektual oyunları və s. layihə və tədbirləri qeyd edib.





A.Rəhimov xüsusi vurğulayıb ki, son beş ildə nazirlik tərəfindən 681 tədbir, o cümlədən 107 beynəlxalq tədbir həyata keçirilib. Xarici heyətlər çərçivəsində 7305 əcnəbi Azərbaycana səfər edib, 1277 azərbaycanlı gənc beynəlxalq tədbirlərə qatılıblar. Gənclərimizin təşəbbüsü ilə mənzil-qərargahı Bakıda yerləşən 5 beynəlxalq gənclər təşkilatı yaradılıb.

Azərbaycan gənclərinin beynəlxalq əməkdaşlığı barədə də məlumat verən nazir bu baxımdan 2014-cü ildə ölkəmizdə keçirilən və 165 ölkədən 700 nümayəndənin iştirak etdiyi Gənclər Siyasəti üzrə I Qlobal Forumun əhəmiyyətini xüsusi vurğulayıb. Nazir bununla yanaşı, 42 xarici ölkədə keçirilən "Mən Azərbaycan haqqında nə bilirəm" esse müsabiqəsinin, könüllülük hərəkatının inkişafını qeyd edib.

VIII Forumun səmərəli müzakirələrlə gənclərin həyatında yaddaqalan tədbirə çevriləcəyinə əminliyini ifadə edən nazir tədbirin işinə uğurlar arzulayıb.

Milli Məclisin gənclər və idman komitəsinin sədri Ülvi Quliyev Azərbaycanda gənclər siyasətinin dövlətin həyata keçirdiyi siyasi kursun prioritet istiqamətlərindən olduğunu bildirib. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclərin ölkə həyatının bütün sahələrində fəal iştirak etdiklərini vurğulayan komitə sədri deyib ki, gənclərimiz dövlətimizin dəstəyi ilə mühüm yerli və beynəlxalq tədbirlərdə uğurla çıxış edir, ölkəmizi beynəlxalq aləmdə uğurla təbliğ edirlər. Bu tədbirlər Azərbaycan gənclərinin dünyagörüşünün, fəallığının artmasında, onların beynəlxalq əlaqələrinin inkişafında mühüm rol oynayıb.

Diqqətə çatdırılıb ki, müstəqilliyin bərpasından indiyə kimi Azərbaycanda gənclər sahəsində mühüm uğurlar əldə olunub. Bu uğurların əsas səbəbi dövlət gənclər siyasətinin təməlinin sağlam zəmində formalaşdırılması olub. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu dövlət gənclər siyasəti bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Dövlətimizin başçısının bu sahəyə yüksək diqqət və qayğısı nəticəsində ölkəmizdə gənclərin inkişafı ilə bağlı mühüm dövlət proqramları və strategiyaları qəbul olunub, Gənclər mərkəzləri, Gənclər evləri, Olimpiya İdman kompleksləri istifadəyə verilib.

Ülvi Quliyev dövlət gənclər siyasətinin uğurla reallaşdırılmasında digər qurumlarla yanaşı, Azərbaycan Respublikası Gənclər Fondunun uğurlu fəaliyyətini də xüsusi qeyd edib. Bu sahədə uğurlu fəaliyyətin əsasında möhkəm qanunvericilik bazasının da mühüm rol oynadığını vurğulayan komitə sədri bu baxımdan 2002-ci ildə parlamentdə qəbul olunmuş "Gənclər siyasəti haqqında" Qanunun qəbul edildiyini bildirib. O, cəmiyyətin sürətli inkişafı nəticəsində yaranan zərurətlə əlaqədar həmin qanuna yeni əlavə və dəyişikliklərin edildiyini diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov dövlət gənclər siyasətinin muxtar respublikada da uğurla həyata keçirilməsi nəticəsində əldə olunan uğurlardan danışıb. Bildirilib ki, muxtar respublikada gənclərin problemlərinin həlli, onların məşğulluğu, yaradıcı təşəbbüslərinin reallaşdırılması, gənclər arasında sağlam həyat tərzinin təbliği məsələlərinə xüsusi diqqət yetirilir.

Muxtar respublika əhalisinin 140 min nəfərini (30,8 faiz) gənclərin təşkil etdiyini deyən A.Cabbarov bildirib ki, gənclərin vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir, onların muzeylərə, tarixi abidələrimizə ekskursiyaları təşkil olunur. Bu gün əldə olunan uğurlar bu sahəyə yüksək diqqət və qayğının göstəricisidir.

Naxçıvan Muxtar Respublikasında gənclərin fiziki inkişafının, sağlamlıqlarının qorunması, bədən tərbiyəsi və idmanın kütləviliyinin artırılması baxımından görülən işlərdən danışan A.Cabbarov vurğulayıb ki, muxtar respublikada bu imkanlardan bəhrələnən gənclərin sayı 40 minə yaxındır. Bu diqqətin nəticəsidir ki, naxçıvanlı idmançılar yerli və beynəlxalq turnirlərdə böyük uğurlar qazanırlar. Naxçıvanlı idmançılar il ərzində ümumilikdə 172, o cümlədən ölkə birinciliklərində 84, beynəlxalq turnirlərdə 83, Avropa çempionatlarında 3, dünya çempionatlarında 2 medal qazanıblar.

Muxtar respublikanın gənclər və idman naziri bildirib ki, Naxçıvanın 2018-ci il Azərbaycanın Gənclər Paytaxtı və İslam Mədəniyyətinin Paytaxtı seçilməsi muxtar respublika gənclərinin inkişafında, onların fəallıqlarının artırılmasında və beynəlxalq əlaqələrinin gücləndirilməsində mühüm rol oynayıb. O, çıxışının sonunda muxtar respublika gənclərinə göstərilən yüksək diqqət və qayğıya görə naxçıvanlı gənclər adından Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.

Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov çıxışında ölkəmizdə gənclərin bilik və bacarıqlarının inkişafı, onların təşəbbüs və layihələrinin dəstəklənməsi istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, Azərbaycan gənclərə göstərilən xidmət və yaradılan şərait baxımından dünyanın ən qabaqcıl ölkələrindəndir. Azərbaycan, həmçinin BMT-nin "İnsan İnkişafı İndeksi"ndə də dünyada ilk sıralardadır.

Dövlətimizin başçısının diqqət və qayğısı nəticəsində ölkəmizdə digər qurumlar kimi, Gənclər Fondunun da bu sahədə səmərəli fəaliyyət göstərdiyini vurğulayan F.Cəfərov Prezident İlham Əliyevin Sərəncamı ilə Fondun fəaliyyət dairəsinin və səlahiyyətlərinin genişləndirilməsinin gənclər üçün yeni imkanlar yaratdığını diqqətə çatdırıb. Bildirib ki, yaradılan imkanlardan bəhrələnən gənclərimiz ən müasir biliklərə yiyələnərək ölkəmizi beynəlxalq arenada uğurla təbliğ edir, dövlətimizin inkişafına mühüm töhfə verir, Vətənimizin keşiyində ayıq-sayıq dayanırlar.

Gənclərin ölkəmizin və cəmiyyətin inkişafında rolunu artırmaq, onların əlaqələrini gücləndirmək, dövlət və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığı inkişaf etdirmək baxımından Forumun əhəmiyyətini yüksək qiymətləndirən Fondun sədri tədbirin işinə uğurlar arzulayıb.

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (GTMŞ) sədri Məryəm Məcidova sıralarında 127 təşkilatın birləşdiyi qurumun ötən dörd ildəki fəaliyyətinin yekunları barədə məlumat verib. M.Məcidova bu tədbirlər arasında Azərbaycan Könüllülük Xidməti, "Xətdə", BMT ilə birgə reallaşdırılan "Gənclər daha yaxşı gələcək uğrunda", "Nifrət nitqinə yox" və s. layihə, kampaniya və proqramların uğurla reallaşdırıldığını bildirib. Diqqətə çatdırılıb ki, beynəlxalq əlaqələrin inkişafına xüsusi diqqət yetirən Şura Avropa Könüllülük Xidməti, "ERASMUS+" proqramları üzrə, eləcə də Avropa Gənclər Fondu və digər qurumlarla səmərəli əməkdaşlıq etdiyini deyib. Bildirib ki, Şura son dörd ildə 150-yə yaxın beynəlxalq tədbirdə ölkəmizi təmsil edib.

Gələcək planlardan danışan M.Məcidova paytaxt və region gəncləri arasında əlaqələrin gücləndirilməsi və Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov Azərbaycan gəncliyinin bugünkü inkişafının, əldə etdiyi mühüm uğurların əsasında ulu öndər Heydər Əliyevin diqqət və qayğısının, uzaqgörənliklə əsası qoyduğu dövlət gənclər siyasətinin yüksək səviyyədə reallaşdırılmasının dayandığını deyib. Qeyd olunub ki, bu yüksək diqqət və qayğı nəticəsində gündən-günə inkişaf edərək ən müasir tələblərə cavab verən Azərbaycan gəncləri ölkəmizi beynəlxalq təşkilatlarda, tədbir və forumlarda uğurla təmsil edirlər. Təsadüfi deyil ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində bir sıra ölkələr və beynəlxalq qurumlar Xocalı soyqırımını tanıyıb.

Sonra Dünya Skautlar Təşkilatının icraçı direktoru Əhməd Əlhəndavinin və BMT baş katibinin gənclər üzrə xüsusi elçisi xanım Cayatma Vikramanayakenin Azərbaycan Gənclərinin VIII Forumunun iştirakçılarına videomüraciətləri dinlənilib.

Videomüraciətlərdə Azərbaycan dövlətinin dünyada gənclər siyasətinin inkişafına mühüm töhfələr verdiyi xüsusi vurğulanıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gənclərin inkişafı, onların beynəlxalq əlaqələrinin genişləndirilməsi üçün əlverişli şərait yaradılıb. Videomüraciətlərdə Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq konfrans və forumların dünyada gənclər hərəkatının inkişafında rolu yüksək qiymətləndirilib.

Fasilədən sonra zona toplantılarından Foruma seçilmiş nümayəndə heyətlərinin rəhbərləri təmsil etdikləri bölgələrdə görülən işlər barədə hesabat məruzələri ilə çıxış ediblər. Həmçinin müxtəlif sahələri təmsil edən gənclərin, eləcə də aparıcı gənclər təşkilatlarının rəhbərlərinin və təmsilçilərinin çıxışları dinlənilib.

Yekunda tədbirin qətnaməsi və VIII Forumun iştirakçılarının adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

Müstəqil Azərbaycan Gənclərinin ilk Forumu ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də keçirilib. 1997-ci il fevralın 1-də Forumun ildönümü münasibətilə bir qrup gənci qəbul edən ulu öndər Heydər Əliyev ilk Forumun keçirildiyi 2 fevral tarixinin Azərbaycan Gəncləri Günü kimi qeyd olunması haqqında Fərman imzalayıb. Forum Azərbaycanın müasir ictimai-siyasi tarixində layiqli yer tutaraq dövlətin gənc nəslin hərtərəfli inkişafına yönəlmiş strategiyasına mühüm təkan verib. Sonuncu - VII Forum 2014-cü il iyunun 2-də Heydər Əliyev Sarayında keçirilib.

**AZƏRTAC**

*Azərbaycan Ədliyyəsi - 100*

# Ədliyyə və məhkəmə orqanları müasirləşir

**Uzunmüddətli tarixi mübarizənin məntiqi yekunu kimi ötən əsrin əvvəllərində dövlət müstəqilliyinin bərpasına nail olmuş Azərbaycan xalqı bu möhtəşəm siyasi hadisənin 100-cü ildönümünü təntənəli surətdə qeyd edir. Əsrlər boyu müstəqil yaşamaq, taleyini sərbəst şəkildə müəyyənləşdirmək, təbii sərvətləri üzərində sahiblik haqqını təmin etmək arzusunda olmuş cəfakeş xalqımız bu yolda bir çox çətinliklərə mətinliklə sinə gərərək ötən əsrin əvvəllərində yaranmış əlverişli şansdan əzmlə bəhrələnmişdir.**

Müsəlman Şərqində ilk demokratik, hüquqi və dünyəvi dövlətin 1918-ci il mayın 28-də məhz Azərbaycanda elan olunması, yüksək sosial-mədəni, iqtisadi tərəqqiyə, vətəndaş cəmiyyətinin formalaşmasına xidmət edən çoxşaxəli islahatların məhz bu dövlətdə reallaşdırılması azərbaycanlıların zəngin milli ideyaya, yüksək milli qürura, yenilikçi düşüncə tərzinə malik olmasının təcəssümüdür. Milli ideyada yer alan ali məqsədlərin reallaşdırılması nəticəsində həmin dövrdə cəmiyyətdə demokratik hüquq və azadlıqlar bərqərar olmuş, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilmiş, müsəlman Şərqində ilk dəfə olaraq qadınların seçki hüququ tanınmış, Azərbaycan-türk dili dövlət dili elan edilmiş, Bakı Dövlət Universiteti təsis edilmiş, milli ordu, milli valyuta, parlament, təhlükəsizlik strukturları formalaşdırılmışdır.

Tarixi faktlar göstərir ki, cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti qısamüddətli mövcudluğu dövründə bugünkü müstəqil dövlətimizin sələfi qismində müstəqilliyimizə hüquqi-siyasi və iqtisadi əsaslar formalaşdırmışdır. Milli hökumətə rəhbərlik edən ziyalılar hələ o dövrdə hüquqi dövlətin formalaşdırılması baxımından ədliyyə və məhkəmə orqanlarının yaradılmasını vacib sayaraq bu istiqamətdə əməli tədbirlər həyata keçirmişlər. Təsadüfi deyildir ki, Azərbaycanın dövlət müstəqilliyinin elan olunduğu tarixi gündə - 28 may 1918-ci il tarixdə Ədliyyə Nazirliyi təsis edilmiş, dövrünün nüfuzlu ictimai-siyasi xadimlərindən olmuş Xəlil bəy Xasməmmədov bu posta təyin olunmuşdur. Nazirlər Şurasının qərarı ilə 1918-ci il oktyabr ayının 1-də Bakı dairə məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti bərpa edilmiş, noyabrın 14-də Azərbaycan məhkəmə palatasının Əsasnaməsi, 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi və ştat cədvəli təsdiq olunmuşdur. Bununla belə, müəyyən obyektiv və subyektiv səbəblər üzündən Azərbaycan xalqı müstəqillik nemətinin şirinliyini uzun müddət dada bilməmişdir: bir tərəfdən idarəçilikdə buraxılan bəzi səhvlər - daxildə tam milli birliyin əldə edilməməsi, düşmən qüvvələrə qarşı layiqli müqavimət əzminin olmaması, digər tərəfdən həmin dövrdə bütün dünyanın siyasi mənzərəsini dəyişməkdə olan geopolitik proseslər Cümhuriyyətin yaşamasına, müstəqil təsisat kimi sözünü deməsinə imkan verməmişdir. Cəmi 23 ay mövcud olmuş Müsəlman Şərqində ilk demokratik quruluşlu dövlət xarici hərbi müdaxilə nəticəsində süquta uğrasa da, tarixi fakt, çağdaş prinsiplərə söykənən milli dövlətçilik ənənələrinin başlanğıc nöqtəsi kimi Azərbaycan xalqının yaddaşından heç zaman silinməmişdir.

Sovetlər Birliyi dövründə Ədliyyə Nazirliyi bir neçə dəfə ləğv olunmuş və yenidən təsis olunmuşdur. Ədliyyə Nazirliyinin mükəmməl struktur kimi əsaslı surətdə formalaşdırılması, ədliyyə işinin təkmilləşdirilməsi, onun gələcək inkişafı üçün əlverişli şəraitin yaradılması isə məhz 70-ci illərə - ümummilli lider Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövrünə təsadüf edir.

Ötən əsrin sonlarında Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyev Ədliyyə Nazirliyinin inkişafı, onun layiq olduğu yeri tutması üçün əlindən gələni əsirgəməmiş, hüquqi dövlətin yaradılması baxımından ədliyyə orqanlarının fəaliyyətinin gücləndirilməsini son dərəcə zəruri saymışdır. Fransız mütəfəkkiri Ş.Mönteskyenin fikridir - liderlik lazımi anda cəsarət nümayiş etdirmək bacarığıdır. Tarixi təcrübə göstərir ki, yalnız milli iradənin, irs və ənənələrin, düşüncə sisteminin parlaq təzahürü kimi yaranmış dövlət modeli tarixin sərt sınaqları qarşısında duruş gətirərək milli inkişafın əsasına çevrilir. Hər bir müstəqil dövlətin yaranmasına, möhkəmləndirilməsinə və qorunub saxlanılmasına doğru uzanan mürəkkəb ictimai-siyasi proseslərin episentrində də məhz lider və şəxsiyyət amili dayanır.

Dövlət müstəqilliyinin ilk illərində hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda ciddi sınaqlarla üzləşən Azərbaycan Respublikası məhz ulu öndər Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi islahatlar nəticəsində cəmiyyətin təkamül sistemini, dövlət idarəçilik mexanizmlərinin səmərəli fəaliyyətini tənzimləyən qanunların müasirləşdirilməsini və təkmilləşdirilməsini davamlı prosesə çevirmişdir. Ötən 25 ildə respublikanın demokratikləşmə, insan hüquq və azadlıqlarının təminatı sahəsində yüksək nailiyyətlər qazanması da bilavasitə mülki cəmiyyət quruculuğuna hesablanmış ədliyyə və məhkəmə-hüquq islahatlarının ölkənin sosial-iqtisadi inkişaf dinamikası ilə uzlaşdırılması nəticəsində mümkün olmuşdur.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik-hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur.

Ədliyyə Nazirliyində yeni dövrün tələblərindən irəli gələn islahatların aparılması, ədliyyə orqanlarının iş üsul və vasitələrinin təkmilləşdirilməsi, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin yüksəldilməsi, qanunvericiliyin təkmilləşdirilməsi və ədalət mühakiməsinin səmərəliliyinin artırılması, habelə ədliyyə fəaliyyətinin digər müxtəlif sahələri üzrə zəruri tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının ilk Konstitusiyası, həmçinin ədliyyə orqanlarının cəmiyyətdəki yeri və layiqli mövqeyini təmin edərək bu sistemdə davamlı islahatların aparılmasına əlverişli imkanlar açmışdır. Ulu öndərin 11 noyabr 2000-ci il tarixli fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyətinin Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün - 22 Noyabr tarixi Ədliyyə işçilərinin Peşə Bayramı günü elan edilmişdir. Yaranmasının 100-cü ildönümünü qeyd edən ədliyyə orqanlarının əməkdaşları ulu öndərin bu tarixi xidmətini daim minnətdarlıq duyğusu ilə xatırlayır, onun layiqli siyasi davamçısı cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatları ürəkdən dəstəkləyirlər.

Bu sahədə həyata keçirilmiş tədbirlər sistemini son 15 ildə inamla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev hüquqi dövlət quruculuğu prosesində müstəsna xidmətləri olan Ədliyyə Nazirliyinin fəaliyyət dairəsinin, statusunun, cəmiyyətdəki rolunun və mövqeyinin əhəmiyyətli dərəcə yüksəlməsini praktik addımları ilə təmin etmişdir. Bu baxımdan Azərbaycan Prezidentinin "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli Fərmanının əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Fərmanla Nazirliyin strukturunda ciddi dəyişikliklər edilmiş, bir sıra qurumların funksiyaları dəqiqləşdirilmiş, digərlərinin statusu genişləndirilmişdir. Habelə insan hüquqlarının təmin olunmasına, hüquqi maarifləndirmə və informasiya təminatı işinin yaxşılaşdırılmasına, ictimaiyyətlə əlaqələrin gücləndirilməsinə xüsusi diqqət yetirilərək İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsi yaradılmışdır. Fərman əsasında bölgələrdə regional ədliyyə şöbələrinin və rayon (şəhər) qeydiyyat şöbələrinin yaradılması yerli əhalinin bu orqanlara müraciət imkanlarını asanlaşdırmış, habelə regionların sosial-iqtisadi inkişafına, xüsusilə yerli hüquqşünasların işlə təminatına xidmət etmişdir. Ali hüquq təhsilli şəxslərin ixtisasları üzrə peşə səviyyəsinin yüksəldilməsi, habelə ədliyyə orqanları işçilərinin, hakimlərin və digər hüquqşünasların peşə hazırlığının artırılması məqsədilə Ədliyyə Nazirliyi yanında Hüquq-Tədris Mərkəzinin əsasında Ədliyyə Akademiyasının yaradılması da Azərbaycan ədliyyəsinin son illər ərzində əldə etdiyi mühüm uğurlardan olmuşdur. Bundan əlavə, 18 aprel 2006-cı il tarixli "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə", 26 may 2006-cı il tarixli "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunu, 2009-cu il 6 fevral tarixdə təsdiqlənmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" və digər sənədlər Azərbaycan ədliyyə sisteminin müasirləşdirilməsini, onun cəmiyyət həyatında mühüm dövlət təsisatına çevrilməsini təmin etmişdir.

Son illərdə Ədliyyə Nazirliyi tərəfindən informasiya-kommunikasiya texnologiyalarının tətbiqi daim diqqətdə saxlanılaraq bu sahədə xeyli işlər görülmüşdür. O cümlədən vətəndaşlara keyfiyyətli və rahat xidmət göstərilməsi, inzibati işçilərlə təmasın minimuma endirilməsi məqsədilə elektron köşklər, habelə nəzarətin gücləndirilməsi üçün veb-kameralar quraşdırılmışdır. Nazirliyin saytında xüsusi "e-xidmətlər" bölməsi, habelə məhkəmə sisteminin vahid elektron portalı yaradılmışdır. Hüquqi islahatların mühüm istiqamətlərindən biri kimi son 15 ildə məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi və təkmilləşdirilməsi tədbirlərini də xüsusi qeyd etmək lazımdır. Bunun nəticəsidir ki, hazırda respublikada ədalət mühakiməsi hakimlərin müstəqilliyi təmin edilməklə, heç bir məhdudiyyət qoyulmadan, faktlara əsasən, qərəzsiz, ədalətlə və qanunlara uyğun həyata keçirilir. Məhkəmələrin işinin təkmilləşdirilməsi və beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə 2004-cü ilin dekabrında "Məhkəmə-Hüquq Şurası haqqında" yeni qanun qəbul olunmuş, "Məhkəmələr və hakimlər haqqında" qanuna bir sıra mütərəqqi dəyişikliklər edilmişdir.

Dövlətimizin başçısının 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Fərmanı keyfiyyətcə yeni mərhələdə ölkəmizdə çoxşaxəli hüquq islahatları üçün baza rolunu oynamışdır. Fərman əsasında regionlarda yeni apelyasiya və inzibati-iqtisadi məhkəmələr, habelə Ədliyyə Akademiyası yaradılmış, Hakimlərin Etik Davranış Kodeksi hazırlanaraq təsdiqlənmişdir. Eyni zamanda məhkəmələrdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, məhkəmə təcrübəsində nəzərə alınması təmin olunmuş, hakimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir. Həmin fərmanın davamı kimi ölkə başçısının 17 avqust 2006-cı il tarixdə imzaladığı "Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında" fərman hakimlərin sayının 157 ştat artırılmasını nəzərdə tutmaqla, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etmişdir. Bu addımlar sonrakı illərdə də davam etdirilmiş, respublika üzrə hakimlərin sayı 2 dəfədən çox artırılaraq 600 nəfər müəyyən edilmişdir.

Hakimlərin seçimi prosesinin Hakimlərin Seçki Komitəsi tərəfindən test üsulu ilə, tamamilə obyektiv, şəffaf və demokratik şəraitdə həyata keçirilməsi də aparılan islahatların ən uğurlu və diqqətəlayiq nəticələrindəndir. Son 15 ildə ümumilikdə 400-dən çox hakimliyə namizəd test üsulunda uğur qazanaraq bu vəzifəyə təyin olunmuşlar. Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyası (CEPEJ) son illər öz hesabatlarında Azərbaycanda məhkəmə islahatlarına göstərilən diqqəti bir çox Avropa dövlətləri üçün nümunə göstərmişdir. Avropanın hətta bir sıra inkişaf etmiş ölkələrində belə məhkəmələrlə bağlı ciddi problemlərin hökm sürdüyü, hakimlərə təzyiqlərin göstərildiyi və bu halların Avropa Hakimlər Assosiasiyası səviyyəsində aşkar tənqid edildiyi bir zamanda CEPEJ-in ölkəmizdəki məhkəmə islahatlarını təqdir etməsi, şübhəsiz, obyektiv yanaşma kimi dəyərləndirilməlidir.

Məhkəmə hakimiyyətinin özünüidarə funksiyasını uğurla həyata keçirən Məhkəmə-Hüquq Şurasının məqsədyönlü fəaliyyəti nəticəsində yeni məhkəmələrin yaradılması və hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məsələləri xüsusi diqqət mərkəzində olmuşdur. Son 10 ildə məhkəmələrə müraciət imkanlarının yaxşılaşdırılması inkişafı məqsədilə 20-dək yeni məhkəmələr, o cümlədən regional apelyasiya, ağır cinayətlər və inzibati-iqtisadi məhkəmələr yaradılaraq fəaliyyətə başlamışdır. Məhkəmələrdə iş yükünün çoxluğu nəzərə alınaraq, hakimlərin sayı 50 faiz, məhkəmə aparatı işçilərinin sayı 75 faizədək artırılmış, hər bir hakim üçün əlavə köməkçi ştatı təsis olunmuşdur. Məhkəmələrin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi - "Elektron məhkəmə informasiya sistemi"nin yaradılması, məhkəmələr üçün yeni inzibati binaların inşası, mövcud binaların əsaslı təmir olunması ölkədə ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsinə xidmət etmişdir. Son illərdə Bakının Yasamal, Nərimanov və Sabunçu rayonlarında, habelə Gəncə, Oğuz, Gədəbəy, İmişli və Şəkidə yeni məhkəmə kompleksləri inşa edilərək istifadəyə verilmişdir.

2015-ci il noyabrın 4-də Şəki Məhkəmə Kompleksinin inzibati binasının açılış mərasimində iştirak edən Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: *"Ədalət pozulduqda əlbəttə ki, həm narazılıq yarana, həm də, ümumiyyətlə, cəmiyyətin müsbət inkişafı çətinliklərlə üzləşə bilər. Ədalətli qərarlar həm insanlarda dövlətə inamı artırır, eyni zamanda, həyatımızı tənzimləyir. Bütün qərarlar ədalətli olmalıdır. Məhkəmə sistemində qəbul edilmiş qərarlar, aparılan islahatlar, bax, bu məqsədi güdür".*

"Elektron məhkəmə" informasiya sisteminin tərkib hissəsi kimi "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihə 2017-ci ildə Avropa Şurasının ekspertləri tərəfindən məhkəmə sistemində elektron idarəetmənin tətbiqi baxımından ən mütərəqqi layihə kimi qiymətləndirilərək "Ədliyyənin kristal tərəzisi" mükafatına layiq görülmüşdür. "Məhkəmənin Nəbzi - İdarəetmədə İnqilab" layihəsinin əsas mahiyyəti məhkəmə sistemində mütərəqqi elektron idarəetmənin tətbiq olunmasından ibarətdir.

Ölkəmizdə aparılan məhkəmə-hüquq islahatlarına yeni nəfəs verən və əhəmiyyətli sayıla biləcək hadisələrdən biri də 27 dekabr 2011-ci il tarixdə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" sərəncamın imzalanması olmuşdur. Fəaliyyət Proqramı məhkəmə-hüquq islahatlarının sürətli və keyfiyyətli həyata keçirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, həmçinin normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşımışdır.

Dövlətimizin başçısının 10 fevral 2017-ci il tarixli sərəncamı əsasında Ədliyyə Nazirliyinin tərkibində Probasiya Xidmətinin yaradılması da cəza siyasətinin humanistləşdirilməsi baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Sərəncama əsasən, cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə bu sahədə bir sıra dövlətlərin təcrübəsi öyrənilmişdir. Cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan, o cümlədən ictimai işlər cəzasının effektiv icrası üzrə tədbirlər görülmüş, "elektron icra" sistemi vasitəsilə ictimai işlər cəzasını çəkən şəxslərə və icra prosesinə nəzarət gücləndirilmişdir.

***Sonda böyük qürur hissi ilə qeyd etmək istərdik ki, 100 illik şərəfli inkişaf yolu keçmiş ədliyyə və məhkəmə orqanları respublikamızın dinamik müasirləşmə tempinə adekvat olaraq daha da təkmilləşir, yeni-yeni nailiyyətlərə imza atır. Aparılan islahatlar göstərir ki, Azərbaycanda qanunun aliliyinin təminatı, ədliyyə orqanlarının dövlət idarəçilik mexanizmində nüfuzlu təsisat kimi təşəkkül tapması, o cümlədən ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər konseptual məsələlərin həlli dövlətimizin başçısının xüsusi diqqət mərkəzindədir. ürəkdən inanırıq ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın ədliyyə və məhkəmə sistemi daha da müasirləşəcək, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində bundan sonra da öz sözünü deyəcəkdir.***

**Səadət BƏKTAŞİ,**
**Sumqayıt Apelyasiya Məhkəməsinin sədri, Azərbaycan Respublikası Məhkəmə Hakimləri İctimai Birliklərinin (Assosiasiyalarının) İttifaqının sədr müavini.**

AZPETROL




"Azpetrol" şirkətinin rəhbərliyi və kollektivi Azərbaycan xalqını

17 noyabr - Milli Dirçəliş Günü

münasibətilə təbrik edir. Şirkət xalqımıza sülh, əmin-amanlıq, firavan həyat, tərəqqi, birlik, hər bir ailəyə xoşbəxtlik və xoş gələcək arzulayır.





**Zamanında elə hadisələr baş verir ki, (xidməti zərurətlə bağlı) onun böyüklüyünü, əhəmiyyətini o qədər də duymursan. Düşünürsən ki, hadisələrin birbaşa içində olan "sən"in vəzifə borcun idi, "sən"in vətəndaşlıq borcun idi, ən əsası sən Vətəninə, Torpağına, Xalqına və Dövlətinə sədaqətlə xidmət edən, təmsil etdiyin xalqının adına şərəf gətirən bir nümayəndəsi idin. Üzərindən illər ötəndən sonra fəxr edib qürur duyursan ki, nə yaxşı, o hadisələrin birbaşa təşkilatçısı və iştirakçısı məhz sən olmusan...**

Haqqında bəhs edəcəyimiz və dönəmin reallıqlarından doğan, bədiiliyi, tarixiliyi ilə diqqət çəkən "Üçüncü ən qədim. "T" İdarəsinin İsveç qambiti" romanında cərəyan edən hadisələr də zamanında, dövründə baş vermişdi. Əsərdə bir-birini izləyən hadisələrdən bizi çox da uzaqda olmayan zaman kəsiyi ayırsa da, aktuallıq itməyib, hələ də qalır.

...Uzun bir yola çıxırsan. Yollar dar, ensiz cığırlara ayrılır. Bu yollarda, bu cığırlarda səni nələr gözləyir? Bilmirsən. Sən məqam düşəcək ki, keçilməz yolların da yolçusu olacaqsan. O yollarda yalnız zəkanın, məntiqin gücüylə büdrəməyib məqsədinə çatmaq üçün irəli addımlayacaqsan. Çünki sənin həyatının nəbzi xidmətinlə həmahəng vurur. Bəhs edilən roman qəhrəmanı da xidmətiylə həyatı zamanında da qoşa addımlayıb. Xalqımızın ümummilli lideri Heydər Əliyevin vaxtilə ən yaxın silahdaşlarından biri, şəxsiyyətinə böyük hörmət bəslədiyim əsl vətəndaş, əsl insan və romanın həmmüəllifi Şamil müəllim ömrünün bu müdrik çağında da yorulmadan yazır, gördüklərini, şahidi olduqlarını, yaşadıqlarını qələmə alır. O yazır ki, gələcək nəsillər öyrənsin. Uzun, keçilməz yollarda, dar, ensiz cığırlarda büdrəməsinlər. Vətənə, Xalqa və Dövlətə sədaqətlə xidmət edib azərbaycanlı adını uca tutsunlar.

"İstedad hər yeniliyin müəllifi, hər bağlı qapının açarıdır", - "Üçüncü ən qədim. "T" İdarəsinin İsveç qambiti" romanının azərbaycanca nəşrinin redaktoru və onun ruscadan doğma Ana dilimizə tərcüməçisi, yazıçı, əsl vətəndaş Azər Hacıbəyli bu fikirdədir. Böyük şairimiz Məmməd Arazın təbirincə desək, "Vətən daşı olmayandan olmaz ölkə Vətəndaşı". Bu misranı məqamı düşdüyünə görə yazmalı oldum. Bəli, elə əsl vətəndaş mövqeyindən də çıxış edən yazıçı Azər Hacıbəyli "İstedad hər yeniliyin müəllifi, hər bağlı qapının açarıdır" fikirlərini həyat təcrübəsinin peşəkarlıq süzgəcindən keçirib tərcümə etdiyi romanda şərh olunan hadisələrin təhlilinin nəticəsi olaraq bildirib. O, həmçinin qeyd edir ki, adı kimi özü də təkrarolunmaz bir kitabın tərcümə edilərək oxuculara çatdırılması zərurəti ona olan bugünkü ehtiyacdan yaranıb.

Romanın rus dilindəki variantı 2013-cü ildə, Azərbaycan dilində isə bu il işıq üzü görüb. Kitabın təqdimat mərasimi bu günlərdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının akt zalında keçirilib. Yaşadığımız dövrün aktuallığını əks etdirən əsərə ön söz Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə tərəfindən yazılıb. Romanın əhəmiyyətini yüksək dəyərləndirən akademik ön sözdə yazır ki, SSRİ DTK-nın Birinci Baş İdarəsinin elmi-texniki kəşfiyyatının rezidenti olmuş - Azərbaycanda yeganə xüsusi xidmət əməkdaşı - polkovnik Şamil Süleymanovun bilavasitə iştirakçısı olduğu real hadisələrin qələmə alınması və oxuculara çatdırılması çox vaxtında atılmış addımdır.

Onu da vurğulamaq yerinə düşər ki, bu gün respublikamızın "gözəgörünməz cəbhə"sində xidmət edən, roman müəlliflərinin təbirincə, "üçüncü ən qədim" peşənin sahibləri Vətənə, Xalqa və Dövlətə sədaqətlə öz istedadlarını, bilik və bacarıqlarını xalqımızın taleyüklü məsələlərinin həllinə yönəltməklə uğura imza atıblar. Olduqca çətin və həm şərəfli, həm də müqəddəs peşə haqqında gözəl fikirlər söyləmək çox qürurvericidir. Daha əziz olan məqam odur ki, xalqımızın milli-mənəvi dəyərlərə söykənən ənənəsi mövcuddur. Zəmanəmizdə belə bir əsərin yazılması da həmin ənənənin davam etdirilməsi vacibliyi ilə şərtlənir. Romanda cərəyan edən hadisələrin əsas qəhrəmanı davamlı olaraq uğurlar qazanır. Bəs əldə olunan bu nailiyyətlərin arxasında ilk növbədə nə dayanır? Öncə Vətənə sevgi və Dövlətə sədaqət dayanır. Sonra səbirlilik, dözümlülük, iradəlilik, zəhmətsevərlik, ekstremal situasiyalarda özünü cəmləşdirə bilmək, çeviklik, iti reaksiya, təbiətdə orientasiyanı müəyyənləşdirməkdən tutmuş, yüksək hissetmə qabiliyyəti, intuisiya və sairələr ən zəruri keyfiyyətlər kimi sıralanır. Daha sonra geyimdən başlamış mətbəx mədəniyyətinədək, şəxsi büdcənin səmərəli idarə edilməsindən dövlət maraqları naminə böyük danışıqların aparılmasınadək, taktiki addımların təhlilindən strateji proqnozlaşdırmayadək, alicənab risk etmək bacarığı və s. qabiliyyətlərin olması vacib şərtdir. Göstərilən xarakterik cəhətlərin, keyfiyyətlərin sayını çoxaltmaq da olar. Oxucular kitabda bütün bunlara və digər maraqlı məqamlara rast gələcəklər. Romanın ən böyük əhəmiyyəti də peşəkarların fəaliyyətindən bəhs olunmasıdır. Onlar üçün maraqlı olan məqamlar romanda çox yer alıb. Məsələn, müqayisələrin aparılması, xatirələrin yada salınması baxımından oxucular maraqlı məqamlarla yaxından tanış olacaqlar . Şübhəsiz ki, "Üçüncü ən qədim" yaradıcı insanlarda yeni ideyaların yaranmasına təkan verməklə, həm də silsilə kitabların yazılacağına ümidimizi artırır. Eyni zamanda digər müasir yaradıcılıq nümunələrinin ərsəyə gəlməsinə və bunların əsasında bədii və sənədli filmlərin çəkilişinin həyata keçirilməsinə güclü təkan verəcəkdir.

Romanı oxuduqca yazıçı Azər Hacıbəylinin tərcümə zamanı hadisələrə bədiilik və tarixilik baxımından yüksək peşəkarlıqla yanaşmasını açıq-aydın görürük. Yazıçının qeydlərində göstərilir ki, redaktor-tərcüməçi olaraq əsəri tərcümə etməzdən öncə onu bir oxucu kimi mütaliə etmiş, iş prosesində təkrar-təkrar oxumuşdur. Ən maraqlısı isə odur ki, oxuduqca bu onu nəinki yormamış, əksinə hər dəfə özü üçün yeniliklər kəşf etmişdir. Kifayət qədər həyat təcrübəsinə malik, müəyyən yaradıcılıq yolu keçmiş və əsərin qəhrəmanını yaxından tanıyan bir insan olaraq o, başa düşmüşdür ki, "Üçüncü ən qədim"in qəhrəmanının müvəffəqiyyətinin əsasında peşəkarlıq və digər vacib cəhətləri ilə yanaşı həm də onun xüsusi istedada malikliyi, azərbaycanlı olması, azərbaycanlı kimi düşünməsi durur.

"Üçüncü ən qədim. "T" İdarəsinin İsveç qambiti" romanı ötən əsrin 80-ci illərində inkişaf etmiş Avropa ölkələrindən birində cərəyan edən real hadisələr əsasında yazılıb. Əsərdəki biri-biriylə bağlı olan hadisələrin ardıcılığına diqqət yetirək... Keçmiş SSRİ təhlükəsizlik orqanları ilə qarşı-qarşıya duran rəqib xüsusi xidmət orqanları müəyyənləşdirilmiş plan-sxemlər üzrə fəaliyyət göstərirdilər. Və belə plan-sxemlər qüsursuz olanda uğur onlara nəsib olurdu. Bütün bu plan-sxemlərin çatışmayan ümumi cəhətlərindən biri də o idi ki, onlar mübarizə apardıqları tərəfdə Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşlarının timsalında çox hallarda ümumi şəkildə sovet adamları və rusları görürdülər, onları belə də adlandırırdılar. Deməli, azərbaycanlı rezident, Nizami Gəncəvi kimi dahiləri yetirən qədim bir torpağın övladı uğura imza atır. Göz qabağında "gözəgörünməz" qəhrəman - məhz azərbaycanlı istedadı ilə, peşəkarlıqla Vətəninə xidmət edir, bütün fiziki və mənəvi çətinliklər maneəsini aşaraq qarşısına qoyulmuş məqsədə çatır. Əsərin qəhrəmanı öz fəaliyyətində ikiqat məsuliyyətlidir, həm böyük Vətəni qarşısında, həm də ləyaqətlə təmsil etdiyi doğma Azərbaycan önündə. Burada diqqəti cəlb edən önəmli nöqtə isə dəniz və neftlə bağlıdır. Hadisələrin kulminasiyası, gərgin situasiyaların həlli məhz dənizdə və ya dəniz kənarında baş verir. Qəhrəmanın köməkçisi agent "Lyuis" dənizdə çalışan mühəndis-neftçidir...

Romanın doğma Ana dilimizə tərcüməsi və çap olunması həm də əlamətdar tarixi bir dövrə təsadüf edir. Azərbaycan təhlükəsizlik orqanları gələn - 2019-cu ildə 100 illik yubileyini qeyd edəcək. Qısaca olaraq xatırlatmaq istərdim ki, Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu cəmi 23 ay ərzində ordu quruculuğunda və dövlətin təhlükəsizliyinin təminatının təşkilində tam artilleriya generalları Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin və general-leytenant Məmməd bəy Sulkeviçin böyük xidmətləri olub. 1919-cu il martın 28-də Cümhuriyyətin Hərbi naziri Səməd bəy Mehmandarovun və Baş Qərargah rəisi Məmməd bəy Sulkeviçin imzaladıqları 157 saylı əmrlə Hərbi Nazirliyin Baş Qərargahının general-kvartmeystr şöbəsində kəşfiyyat və əks-kəşfiyyat bölməsi yaradılıb. Burada da varislik prinsipi əsas götürülərək ümummilli lider Heydər Əliyevin 1997-ci il 23 mart tarixli fərmanı ilə 28 mart Milli Təhlükəsizlik orqanları işçilərinin peşə bayramı günü elan edilib. Bu bir əsrlik tarixdə DTK dövrünün də öz yeri var. Bu ərəfədə əsərin oxuculara doğma Ana dilimizdə təqdim olunması da Azərbaycan təhlükəsizlik orqanlarının və hüquq-mühafizə sisteminin əməkdaşlarına, Silahlı Qüvvələrimizin şəxsi heyətinə əsasən də gənclərə əvəzsiz hədiyyədir. Qoy onlar tarixi təcrübəni müasirlik süzgəcindən keçirib Dövlətimizin və Xalqımızın gözəgörünməz bəlalardan hifz olunmasında öz töhfələrini vermək barədə düşünsünlər, çalışsınlar, bu kitab isə həmin çətin, eyni zamanda şərəfli və müqəddəs yolda bir stolüstü vəsait kimi onlara daim mayak olsun. Gənclər öz istedadlarını, bilik və bacarıqlarını Vətənə, Dövlətə və Xalqa sədaqətlə xidmətə həsr etsinlər. Romanın azərbaycanlı qəhrəmanının həyat hekayəsini özlərinə örnək götürsünlər. Peşəkarların araya-ərsəyə gətirdiyi bu kitab gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində və hərbi qulluqçuların ruh yüksəkliyinin artırılmasında əvəzsiz töhfə və faydalı mənbədir.

Romanı oxuduqca orada cərəyan edən hadisələrin şahidinə çevrilirsən. Maraqlı yazı üslubu (görünür tərcüməçi müəlliflərin yazı tərzinin və təhkiyə üsulunun bacardıqca olduğu kimi saxlanılmasına çalışıb) və ətrafda baş verən proseslərə müəllifin və qəhrəmanın özünün münasibəti, həmçinin yanaşma prizması diqqətdən kənarda qalmır, arabir bəzi məqamları müşayiət edən istehzanı da duyursan. Bu, Vətənə sədaqətlə xidmət edən vətənpərvərlərin satqınlıq yolunu seçmişlər, yüksək peşəkarların bayağı mənsəbpərəstlər və naşılar, istedadlıların, bacarıqlıların fərasətsizlər, özünə güvənənlərin ümidsizlər, haqlıların haqsızlar, müsbətlərin mənfilər, başqa sözlə işığın qaranlıq, xeyrin şər üzərində istehzasına bir işarədir.

Rus ədəbi tənqidçisi Vissarion Belinski A.S.Puşkinin nəzmlə "Yevgeni Onegin" romanını "rus həyatının ensiklopediyası" adlandırmışdır. Bax, mənim fikrimcə, "Üçüncü ən qədim" - "xüsusi xidmətlərin həyatının ensiklopediyası"dır...". Bədii həqiqətin sayəsində "Üçüncü ən qədim"in səhifələrində oxucuya həm rəşadətin anatomiyası, həm satqınlığın anatomiyası, yüksək peşəkarlığın və bayağı mənsəbpərəstliyin (Və bu həm BBİ-yə, MKİ-yə, həm Mİ-6-ya və romanda əks olunmuş digər xüsusi xidmətlərə aiddir) anatomiyası göstərilmişdir, eləcə də təhkiyənin geniş coğrafiyası - romanın süjet xətti Azərbaycandan, Rusiyadan, ABŞ-dan, Meksikadan, İsveçdən, İndoneziyadan keçir..."

Sonda onu da xüsusi vurğulamaq istərdim ki, yazıçı Azər Hacıbəylinin yüksək peşəkarlıqla həyata keçirdiyi "Üçüncü ən qədim" kitabın uğurlu tərcümə işini Azərbaycan təhlükəslik orqanlarının 100 illik yubileyinə töhfəsi kimi dəyərləndirmək olar.

İnanırıq ki, haqqında bəhs etdiyimiz "Üçüncü ən qədim" özünə geniş oxucu auditoriyası qazanacaq, Vətənə, Xalqa və Dövlətə xidmət yollarında onlara ən böyük dəstək və ən yaxın dost olacaq.

**Lalə HÜSEYNOVA,**
**tədqiqatçı-jurnalist.**

## "AZERGOLD" QSC

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1** - Fərdi mühafizə vasitələri və xüsusi geyimlərin satınalınması

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçılar lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlığa malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Rafiq Abdullayev, Tel.: 012-505-02-02, I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər

**LOT- 1: İştirak haqqı: 200 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Benefisiar: "AZERGOLD" QSC VÖEN: 1403467421*
*Hesab nömrəsi: AZ85PAHA38020AZNHC0190068658*
*Bank: "PAŞA Bank" ASC VÖEN: 1700767721*
*Müxbir hesab: AZ82NABZ01350100000000071944*
*SWİFT: PAHAAZ22 Kod: 505141*

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*
*7. Digər müvafiq sənədlər (Əsas Şərtlər Toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **19 dekabr 2018-ci il, saat 15:00-a qədər,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) **27 dekabr 2018-ci il, saat 15:00-a qədər** Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında "AzerGold" QSC-nin Tender Komissiyasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı **28 dekabr 2018-ci il, saat 15:00-da** Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

**"AzerGold" QSC, TENDER KOMİSSİYASI.**

TƏKRAR

## Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti "Güzəştli mənzil" Sisteminin proqram təminatına texniki dəstəyin göstərilməsi və təkmilləşdirilməsinə dair 24/7 xidmətləri üzrə satınalmalarla əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, iddiaçının ixtisas göstəricilərinin aidiyyəti xidmətlər üzrə uyğunluğu, kadr və texniki imkanları, təcrübəsi.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət edib qeydiyyata alındıqdan sonra aşağıdakı hesaba 500 (beş yüz) manat iştirak haqqı ödəməklə Bakı şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, 85Z ünvanından (əlaqələndirici şəxs: Vəliyev Zahid Musa oğlu, telefon: (+99412) 594-54-01 daxili 238) ala bilərlər.

*VÖEN: 1701953921*
*"Kapital Bank" ASC-nin Mərkəz filialı*
*Filialın kodu: 200026*
*VÖEN: 9900003611*
*SWİFT kod: AİİBAZ2X*
*M/h AZ37NABZ01350100000000001944*
*"MİDA" MMC*
*Hesab: AZ18AİİB38030019440029636102*

**Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər.

*1. Tenderdə iştirak etmək üçün ərizə;*
*2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*3. Tender təklifi (tender təklifləri zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifinin ümumi qiymətinin 2 (iki) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*5. Malgöndərənlər (podratçılar) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*- Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*
*- Son 1 (bir) ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- Son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- İxtisas göstəricilərinə dair məlumatlar (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
*- Digər sənədlər: xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənədlər.*

İddiaçılar 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 2018-ci il 10 dekabr tarixinə kimi Tender komissiyasına təqdim etməlidirlər. Həmin sənədlərin hər hansı birini təqdim etməyən və ya ixtisas göstəricilərinə dair tələblərə uyğun olmayan iddiaçının tender təklifi qəbul olunmur.

İddiaçılar öz tender təkliflərini (imzalanmış, möhürlənmiş, ikiqat bağlama zərfdə) 2018-ci il 17 dekabr saat 17.00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender təklifi zərfləri 2018-ci il 18 dekabr tarixində saat 15.00-da "MİDA" MMC-də açılacaqdır.

**Tender Komissiyası.**

Bakı Nəqliyyat Agentliyi tərəfindən Lot - 1 300 ədəd ictimai nəqliyyat vasitəsi - avtobusun satın alınması məqsədilə keçirilmiş açıq tender prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tenderin nəticələri haqqında tender komissiyasının 23 oktyabr 2018-ci il tarixli protokoluna əsasən BMC Otomotiv Sanaye ve Ticaret A.Ş. qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

**Tender Komissiyası.**

# 17 NOYABR MİLLİ DİRÇƏLİŞ GÜNÜ



münasibətilə Azərbaycan xalqını səmimi qəlbdən təbrik edir, sülh, rifah və yeni-yeni uğurlar arzulayırıq!

TEKFEN İNŞAAT

## INVITATION FOR BIDS

**Date: 17/11/2018**

**1.** Within the framework of the Program "Scaling up the response to the HIV epidemic through strengthening national capacities and prevention and treatment services for most at risk population" the Ministry of Health of the Republic of Azerbaijan (hereinafter - The Ministry of Health) invites sealed bids from qualified Bidders for delivery of "Generator", "UPSs" and "Vehicle".

**2.** Further additional information and documentation (standard bidding documents) can be obtained from PIU, Ministry of Health, 3, Aliyarbayov Street, Baku, Azerbaijan; Tel.: +994 12 498 20 01; E-mail hiv-tender@gfatm.az. The contract number for the grant from the Global Fund under which these goods will be procured is AZE-H-MOH-1674.

**3.** All bids shall be delivered to the above address at or before 16.00 p.m. Baku time on 06/12/2018. Late bids shall be rejected and returned unopened.

**4.** The Bids will opened in the presence of the Bidders' representative who choose to attend the Ministry of Health, 3, Aliyarbayov str., Baku, Azerbaijan on 06/12/2018 at 16.30 p.m. Baku time.

**Tender Committee.**

## BİLDİRİŞ

### Tərtər Rayon İcra Hakimiyyəti

01 sentyabr və 11 sentyabr 2018-ci il tarixlərində "Respublika" qəzetində dərc olunan elana və 13 oktyabr 2018-ci il tarixli bildirişə əsasən LOT-1 Tərtər Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının tikinti işləri üzrə açıq tender zərflərinin açılış vaxtı 05 dekabr 2018-ci il saat 16:00-a qədər uzadılır.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin 9 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzi

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir.**

**Lot-1.** 2019-cu il üçün yanacağın (odunun) satınalınması

Tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər. Müqavilələni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə 50 (əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Yevlax şəhəri, H.Əliyev prospekti -95 ünvanından (əlaqələndirici şəxs: Fəxri Qafarov tel:, 0223364093 ala bilərlər.

*VÖEN:2201133531*
*H/h-AZ25CTRE00000000000002165002*
*Bank: Dövlət Xəzinədarlıq Agentliyi*
*VÖEN: 1401555071*
*Kodu: 210005*
*M/h-i AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T. CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Görülən işlər təqdim olunmuş qrafikə əsasən yerinə yetirilməlidir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank zəmanəti istisna olmaqla 25 dekabr 2018-ci il saat 17:00-dək tender təklifi və bank zəmanətini isə 7 yanvar 2019-cu il saat 17:00-da möhürlənmiş ikiqat zərfdə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 8 yanvar 2019-cu il saat 10:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Bakı Baş Səhiyyə İdarəsi Uşaq Nevroloji Xəstəxanası

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 (bir) lot üzrə aparılır:**

**Lot-1.** Mühafizə xidməti.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Şahbazi 95 ünvanından ala bilərlər.

Lot-1. 180 (yüz səksən) manat.
Alan müştəri: Uşaq Nevroloji Xəstəxanası
VÖEN: 1300456311
Hesab N-si
AZ15İBAZ34501089440000107216
ABB-nin Yasamal filialı
Kod: 805562
VÖEN: 9900001881
Müxbir hesabı: AZ03NABZ01350100000000002944
SWİFT BİK İBAZAZ2X

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün ərizə;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifinin qiymətinin 1 faizi həcmində təklifin təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergi borclarının, DSMF və digər icbari öhdəliklərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
*- ixtisas dərəcəsinə dair məlumat;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

**Əlaqələndirici şəxs: G.Əlizadə.**
**Əlaqə telefonu: 538-33-17**

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 25 dekabr 2018-ci il saat 17:00-a qədər təqdim etməlidirlər.

İddiaçılar Lot üzrə tender təkliflərini 7 yanvar 2019-cu il saat 17:00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 8 yanvar 2019-cu il, saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Təhlükəli Tullantılar" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Lot-1. Toyota Land Cruiser 200 markalı avtomobilin satınalınması məqsədi ilə "Respublika" qəzetinin 11 oktyabr 2018-ci il tarixli nömrəsində dərc edilmiş açıq tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə uyğun olaraq baş tutmamış hesab edilir və onun davamından imtina olunur.

**Tender Komissiyası.**

## "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti Həkim-Sanitar Xidməti Ələt Dəmir Yolu Xəstəxanası MMC tibbi aparatların-yenidoğulmuşlar üçün Küvez və cərrahiyyə şöbəsi üçün 100 litr tutumlu Avtoklavın satınalınması ilə əlaqədar

# KOTİROVKA SORĞUSU ELAN EDİR

Kotirovka sorğusunda iştirak etmək istəyənlər sənədləri 24 noyabr 2018-ci il tarixədək təqdim etməlidirlər.

Maraqlanan təşkilatlar 544-07-99 (Əlaqələndirici şəxs: M.Z.Baxışov) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Ünvan:** *AZ 1081; Bakı şəhəri, Qaradağ rayonu, Ələt qəsəbəsi, Park küçəsi 1.*

**Tender Komissiyası.**

Orucova Nüşabə Məhəmmədəli qızının adına Türkan bağlar massivində yerləşən N829/5 "a" bağın 12 saylı orderi itdiyi üçün etibarsız sayılır. (28 iyul 1991-ci il N231 kooperativ)

Məmmədova Gülzar Mahmud qızının adına, Bakı şəh., Səbail ray., Əlibəyov Qardaşları 16, mənzil N 6 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Qusar rayonu Həsənqələ kəndində yerləşən torpaq sahəsinə Abbasov Xaliq Nərman oğlunun adına verilmiş daşınmaz əmlakın dövlət reyestrindən Çıxarış (reyestr nömrəsi: 301013009163) itdiyi üçün etibarsız sayılır.

Daxili İşlər Nazirliyi Nəqliyyatda Baş Polis İdarəsinin Su Nəqliyyat Polis İdarəsi Zığ Liman xətt Polis Bölməsinin polis nəfəri, polis serjantı Əliyev Habil Veyis oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 21 fevral 1998-ci il tarixli 3 nömrəli qərarı ilə Aşağı Nüvədi qəsəbə sakini Babayev Baldadaş Ağakişi oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0077; KOD 80204016) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 3 mart 1998-ci il tarixli 12 nömrəli qərarı ilə Şahağacı kənd sakini Bəhrəmova Elaza Qurban qızına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 1134 A; KOD 80112018) itdiyi üçün etibarsız sayılır.

TƏKRAR

## "AQROLİZİNQ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN

# AÇIQ TENDER ELANI

**Tenderin predmeti:**

**Lot-1.** "500.0 ha sahədə alma bağları üçün damcılı suvarma sistemi avadanlıqlarının satınalınması"

**Lot-2.** "500.0 ha sahədə nar bağları üçün damcılı suvarma sistemi avadanlıqlarının satınalınması"

**Lot-3.** "500 ha sahədə qoz bağları üçün damcılı suvarma sistemi avadanlıqlarının satınalınması"

Tenderin qalibi olmuş iddiaçılar avadanlıqları İnkoterms-2010 DDP şərtilə sifarişə əsasən "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətindən lizinqə alan hüquqi və fiziki şəxslərin ünvanlarında təhvil verməlidirlər. Tender iştirakçılarına təklif edilir ki, "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, müqavilənin yerinə yetirilmə müddəti və şərtlər toplusunda digər qiymətləndirmə üçün tələb olunan tələblərə uyğunluq.

"Aqrolizinq" ASC qarşısında yerinə yetirilməmiş və ya lazımi səviyyədə yerinə yetirməmiş öhdəliyi olan fiziki və hüquqi şəxslər bu tenderdə iştirak edə bilməzlər.

Maraqlananlar tenderlə əlaqədar əlavə məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Məmmədov Tural Murad oğlu**

**Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bünyadov küçəsi, 12**

**Tel.:/Faks: 425-62-18; mobil: +99450 234-58-60**

**E-mail: m.tural@agrolizing.gov.az**

Tenderin əsas şərtlər toplusu Azərbaycan Respublikasının dövlət dilində tərtib olunur. Zərurət olduqda beynəlxalq ticarətdə istifadə edilən dillərin birinə tərcümə olunacaqdır. Maraqlananlar əsas şərtlər toplusunu Lot-1 üzrə 2000 manat, Lot-2 üzrə 2000 manat və Lot-3 üzrə 2000 manat məbləğində iştirak haqqını ödədikdən sonra yuxarıda göstərilən ünvandan ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürə bilərlər:

*Təşkilat: "Aqrolizinq" ASC-VÖEN:1700382471;*
*H/h: AZ91AİİB38070019443500231102 AZN*
*Kapital Bank Mərkəz filialı-Kod: 200026; VÖEN: 9900003611*
*M/h: AZ37NABZ01350100000000001944;*
*S.W.İ.F.T.: AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün 10 dekabr 2018-ci il tarixinə kimi aşağıdakı sənədləri (tender təklifi və 3% bank təminatı istisna olmaqla) təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*- iştirak haqqının ödənilməsi barədə sənəd;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının vergilər və sosial sığorta ödənişləri üzrə borcunun olmaması barədə müvafiq vergi orqanları və DSMF tərəfindən təsdiq olunmuş sənəd;*
*- iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri barədə məlumat, dövlət qeydiyyatı haqqında şəhadətnamənin, dövlət reyestrindən çıxarışın və nizamnamənin notarial qaydada təsdiq edilmiş surəti.*

Bundan əlavə, Tender təklifi və bank təminatı möhürlənmiş bağlı zərflərdə 18 dekabr 2018-ci il saat 17:00-a qədər təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi tender proseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır. Tender təklifi dəyərinin 3% həcmində bank təminatı verilməlidir. Bank təminatı tender proseduru keçirildiyi tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır.

Bank təminatını və tender təklifini bağlı zərfdə təqdim etməyən iddiaçıların təklifi etibarsız sayılır.

Bağlı zərflər 19 dekabr 2018-ci il tarixdə saat 15:00-da iddiaçının özünün və ya etibarnaməsi əsasında onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bünyadov küçəsi-12 ünvanında yerləşən "Aqrolizinq" ASC-nin konfrans zalında açılacaqdır.

**TENDER KOMİSSİYASI.**

## Ekologiya və Təbii Sərvətlər Nazirliyi Ətraf Mühitin Mühafizəsi Departamentinin Lot 1 - Kompleks monitorinq laboratoriyasının yaradılması ilə əlaqədar modul tipli laboratoriya binasının alınması və quraşdırılması işlərinin, analitik tədqiqatlar laboratoriyaları üçün cihaz və avadanlıqların, müxtəlif inventar və reaktivlərin satınalınması, Lot 2 Nəqliyyat vasitələrinin satınalınması məqsədi ilə "Respublika" qəzetinin 10 oktyabr 2018-ci il tarixli nömrəsində dərc edilmiş Açıq Tender elanı ilə əlaqədar

# BİLDİRİŞ

İddiaçıların tenderdə iştirak etmək üçün müvafiq sənədlərin (tender təklifi və təklifin bank zəmanəti istisna olmaqla) son təqdim etmə tarixi 15 noyabr 2018-ci il saat 17:00 tarixdən 22 noyabr 2018-ci il saat 17:00 tarixədək uzadılır.

İddiaçıların tender təklifinin və tender təklifinin bank zəmanəti tələb olunan sənədlərin möhürlü zərflərdə son təqdim etmə tarixi 22 noyabr 2018-ci il saat 17:00 tarixdən 29 noyabr 2018-ci il saat 17:00 tarixədək uzadılır.

İddiaçıların təklif zərfləri 30 noyabr 2018-ci il tarixdə lot-1 üzrə saat 15:00-da, lot-2 üzrə saat 16:00-da açılacaqdır.

**Tender Komissiyası.**

## "Azərbaycan Sənaye Korporasiyası" ASC

"Respublika" qəzetinin 5 noyabr 2018-ci il tarixli buraxılışında dərc edilmiş "Azərbaycan Sənaye Korporasiyası" ASC özünün, həmçinin törəmə müəssisələrinin maliyyə və mühasibatlıq strukturlarının əməkdaşlarına təlimlərin keçirilməsi və məsləhət xidmətlərinin göstərilməsi" üçün kotirovka sorğusu üsulu ilə satınalmanın keçirilməsi barədə elanın ləğv olunduğunu bildirir.

## ALLAH RƏHMƏT ELƏSİN

**Bakı Dövlət Universitetinin coğrafiya fakültəsinin kollektivi professor Vüsət Əfəndiyevə, anası GÜLSƏFA xanımın vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Bakı Dövlət Universitetinin coğrafiya fakültəsinin Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının kollektivi professor Vüsət Əfəndiyevə, anası GÜLSƏFA xanımın vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Bakı Dövlət Universitetinin Qazax filialının kollektivi filialın direktoru Vüsət Əfəndiyevə, anası GÜLSƏFA xanımın vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Vilayət Quliyev, Ələkbər Qasımov, Cəlil Nəbiyev, Ayaz Əsgərov, İlqar Məmmədov, Rasim Kazımov, Tofiq Namazəliyev, Mehman Məmmədov, Etibar Məmmədov, Rövşən Tağızadə, Şahbaz Qasımov, Həsrət Ağayev, Nizami Yusifov, Mikayıl Hümbətov, Sənan Həsənov, Aslan Manafov, Azər Məmmədov, Valeh Xubanov, Elsevər Səfərov, Rahim Maksudov və Asəf Məlikov dostları Kəramət Kazımova, anası SARİTEL xanımın vəfatından kədərləndiklərini bildirir və ailə üzvülərinə dərin hüznlə başsağlığı verirlər.**

**BDU-nun coğrafi ekologiya kafedrasının əməkdaşları Əfəndiyevlər ailəsinə, əziz anaları GÜLSƏFA xanımın vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Bakı Dövlət Universitetinin geologiya fakültəsindən Vasif Babazadə, Adil Xasayev və Bahadur Qələndərov ailələri ilə birlikdə Vüsət Əmir oğlu Əfəndiyevə, anası GÜLSƏFA xanımın vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**SDU-nun Tədris-metodiki Mərkəzinin direktoru, dosent İsabala Qurbanov və BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı dosent Azad Qurbanov BDU-nun Qazax filialının direktoru professor Vüsət Əfəndiyevə, anası GÜLSƏFA xanımın vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**BDU-nun sosial elmlər və psioxologiya fakültəsinin dekanı, prof. H.Ə.Əlizadə Bakı Dövlət Universitetinin Qazax Filialının direktoru, prof. Vüsət Əfəndiyevə, anası GÜLSƏFA xanımın vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.




● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Əli SADIQOV

● Çapa imzalanmışdır
16.11.2018